www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 10 sentyabr 2019-cu il Çərşənbə axşamı № 186 (7356) Qiymәti 60 qәpik

Xəbər

**Azərbaycanı "maşın zibilliyi"nə döndərən səbəblər**

yazısı səh.14-də

# KREMLDƏN İRƏVANA YENİ SÜRPRİZLƏR - "CÜCƏLƏR" OKTYABRDA SAYILACAQ

Rusiya Paşinyanın qarşıdakı Amerika səfərinin önəmini sıfırlayır; **Ermənistanın maliyyə naziri:** "Vəziyyət fəlakətlidir..."



yazısı səh.8-də

## Hakim partiyanın "qara siyahı"sına düşən Əli Abbasov haradadır - ilginc iddialar

Sabiq nazir milyonlar xərcləyərək canını qurtarmışdı; onun Bakıda və bölgələrdə olan mülklərinin, ailə üzvlərinin adına xarici ölkələrdə olan əmlaklarının dəyəri milyonlarla ölçülür

yazısı səh.5-də

## Gündəm

**YAP icra katibinin müavininin açıqlaması gündəmi silkələdi - Siyavuş Novruzov niyə belə dedi?**



**Elman Məmmədov:** "Mən Siyavuş müəllimlə tamamilə razıyam, onun mövqeyini müdafiə edirəm"

yazısı səh.9-da

**"Kimsə dövlət büdcəsini öz cibi ilə dəyişik salırsa, cəzasını alacaq" - Aydın Mirzəzadə**

yazısı səh.3-də

**Azərbaycan-İran münasibətlərinə "dron uçurmaq" cəhdi**

yazısı səh.13-də

**Sabah iqtidar və müxalifət bir araya gələcək**

yazısı səh.2-də

**Baş Prokurorluq "milyardları altına yığanları" istintaqa çağıra bilər**

yazısı səh.3-də

**Müxalif birlikləri dağıdan səbəblər - "update" təklifi**

yazısı səh.6-da

**"Bir çoxları "siyasi məhbus" məsələsi üzərindən özünə biznes qurub..." - Elçin Mirzəbəyli**

yazısı səh.7-də

**Kənd təsərrüfatında nə baş verir - təhlil**

yazısı səh.10-da

**Qarabağ danışıqlarının "donu" payızda açılacaq?**

yazısı səh.11-də

**Müxalifət deputatların sayının 201 olmasını istəyir - səbəb**

yazısı səh.12-də

**Uşaq pulu - yalnızca maddi yardım, yoxsa...**

yazısı səh.15-də



*Sərdar Cəlaloğlu:*

**"Hakimiyyət müxalifəti özündən kənar qoymamalıdır"**

yazısı səh.6-da



**Ziya Məmmədovun daha bir obyekti əlindən alındı**

yazısı səh.12-də



*Əli Həsənov:*

**Eldar İbrahimovun adından yayılmış fikirlər YAP-ın və İlham Əliyev iqtidarının mövqeyini əks etdirmir"**

yazısı səh.2-də

## AŞ PA-nın məruzəçisi Azərbaycan hökumətinə təşəkkür etdi

**AŞ PA-nın Azərbaycan üzrə məruzəçisi Thorhild Sunna Evarsdottir Azərbaycan hökumətinə təşəkkürünü bildirib. "Report"un Fransa bürosu AŞ PA-nın rəsmi saytına istinadən bildirir ki, məruzəçi Azərbaycan hökumətinin onun 5-7 sentyabr tarixlərində Azərbaycanda olduğu zaman səfərini asanlaşdırdığını vurğulayıb.**


Thorhild Sunna

"Mən Azərbaycan hökumətinə rəsmi iclaslar keçirdiyi, ümumiyyətlə, səfərimi asanlaşdırdığı üçün təşəkkürümü bildirirəm", - o qeyd edib.

Thorhild Sunna Evarsdottir səfəri zamanı konstruktiv münasibət, eləcə də hər kəsin Avropa Şurası ilə işləməyə həvəsli olduğunu müşahidə etdiyini bildirib.

## Sabah iqtidar və müxalifət bir araya gələcək

### Fəzail Ağamalı: "Tədbirdən ciddi nəticələr gözləyirəm"



**Sentyabrın 11-də saat 11:00-da ölkə iqtidarı və müxalifəti "Park İnn" hotelində toplaşacaq. Dəyirmi masa formatında keçiriləcək tədbirin əsas mövzusu xaricdən Azərbaycana qarşı təhdidlərin artması olacaq. Toplantının keçirilməsi təşəbbüsü ilə Ana Vətən Partiyası çıxış edib.**

Dəyirmi masaya Azərbaycandakı bütün siyasi qüvvələr, tanınmış QHT-lər, media kapitanları və müstəqil siyasi ekspertlər dəvətlidir. Tədbiri keçirməkdə əsas niyyət Azərbaycanda siyasi proseslərə istənilən səviyyədə xarici müdaxilə meyllərinin qarşısını almaq üçün vahid iradənin ortalığa qoyulmasıdır.

Heç kəsə sirr deyil ki, artıq iki ilə yaxındır Azərbaycan cəmiyyəti, iqtidarı, tanınmış şəxslər, bütövlükdə xalqımız müxtəlif səbəblərdən Avropaya gedib müəyyən dairələr tərəfindən idarə olunan "söyüş müxalifəti"nin təhdidi altındadır. Onların xaos yaratmaq yönündəki çağırışları Azərbaycanda hər kəsi narahat edir. Məhz bu tədbirdə də müzakirələr əsasən bu yöndə olacaq. Dəyirmi masanın maraqlı bir formatda keçiriləcəyi gözlənilir. Belə ki, ilk dəfə olaraq, bura siyasi partiyalarla yanaşı, tanınmış QHT-lər, media kapitanları və müstəqil siyasi ekspertlər dəvət alıb.

**Bu barədə "Yeni Müsavat"a AVP sədri, deputat Fəzail Ağamalı məlumat verdi:** "Bu tədbirdən ciddi nəticələr gözləyirəm. Biz hər zaman Azərbaycanın taleyüklü məsələlərində ölkəmizin sağlam qüvvələrini bir yerdə görmüşük. Əminəm ki, bundan sonra da bir yerdə olacağıq. Tədbirdə Azərbaycanda dövlətçiliyimizə, xalqımızın milli maraqlarına sadiq olan bütün siyasi qüvvələr, vətəndaş cəmiyyətinin təmsilçiləri, dəvət etdiyimiz ekspertlər, media kapitanları iştirak edəcəklər. Orada vahid mövqedən çıxış edəcəyik. Burada niyyət ancaq dövlətçiliyimizin mövqeyində dayanmaqdır. Ölkəmizdə sağlam siyasi qüvvələr də var. Onlar dövlətçilik mövqeyindən çıxış edirlər. Bunlar əsl müxalifətdir. İradəmizi ortalığa qoymalıyıq. Bu məqsədlə tədbir keçirmək təşəbbüsündə bulunduq. Tədbirin təşəbbüskarı mənəm. Bura iqtidar partiyasını da dəvət etmişəm. Ümidvaram ki, onlar iştirak edəcəklər. Bununla bağlı ilkin razılıq var. Müxalifət partiyalarını da dəvət etmişik. Onların əksəriyyəti iştirak etməklə bağlı dəvətimizi qəbul ediblər".

❑ **Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

# "Eldar İbrahimovun adından yayılmış fikirlər YAP-ın və İlham Əliyev iqtidarının mövqeyini əks etdirmir" - Əli Həsənov

### "Azərbaycan iqtidarı dövlətə və dövlətçiliyə xidmət etmək istəyən hər bir qrup və ya şəxslə əməkdaşlığa açıqdır"

**Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, professor Əli Həsənov yeni məqalə ilə çıxış edib. Musavat.com həmin məqaləni təqdim edir:**



- Milli Məclisin komitə sədri, Yeni Azərbaycan Partiyasının rəhbərliyində təmsil olunan Eldar İbrahimovun adından dünən (srağagün-red.) yayılan açıqlama sosial şəbəkələrdə və ictimai rəydə müəyyən anlaşılmazlığa səbəb olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, həm də YAP rəhbərliyində təmsil olunan şəxs kimi bəyan edirəm ki, həm partiyamızın, həm də mövcud iqtidarın bu məsələyə münasibəti ümummilli lider, dövlətimizin və partiyamızın qurucusu Heydər Əliyev tərəfindən müəyyən edilmiş və bu gün də dəyişməz olaraq qalır.

Xatırladıram ki, ümummilli lider Heydər Əliyevin Azərbaycan ziyalılarının 1992-ci ildə mətbuat vasitəsilə ona ünvanladığı müraciətinə verdiyi cavab yeni siyasi hərəkatın və bu hərəkatın avanqard qüvvəsi olan YAP-ın manifesti olaraq qəbul edilmiş və həmin manifestdə ifadə olunmuş prinsip və meyarlar bu gün də siyasi fəaliyyətimizin əsas kredosunu təşkil etməkdədir. Heydər Əliyevin ziyalılara 1992-ci ildə ünvanlandığı həmin müraciət, əslində sadəcə yeni bir siyasi partiyanın deyil, quruculuğuna başladığımız müstəqil dövlətin gələcək siyasi-ideoloji proqramı idi.

Müraciətdə ümummilli lider Azərbaycanın bütün sağlam qüvvələrini vahid dövlətçilik və azərbaycançılıq ideyaları ətrafında birləşərək gənc, müstəqil və yeni Azərbaycan dövlətinin quruculuğuna öz töhfəsini verməyə səsləyirdi.

Hakimiyyətdə olduğu bütün müddət ərzində ümummilli lider həmişə birlik və həmrəylik ideyasına sadiq qalmış, ölkədə vətəndaş sülhü, mili birlik naminə, Azərbaycan dövlətçiliyinə xidmət etmək istəyən, hər hansı idarəçilik və intellektual keyfiyyətləri olan insanların YAP-da və YAP-ın qurduğu iqtidar komandasında təmsil olunmasına şərait yaratmışdır.

Azərbaycan tarixində həm də senzuranı ləğv etmiş rəhbər kimi ümummilli lider fərqli siyasi qüvvələrin parlamentdə birgə təmsilçiliyini, siyasi plüralizm və söz azadlığının müasir inkişafın labüd bir prinsipi olaraq qəbul etmiş, ümummilli məsələlərin siyasi opponentlərlə birgə müzakirəsini, bütün məsələlərin həlli naminə hər kəslə açıq dialoqu və əməkdaşlığı vacib saymışdır.

Belə dövlətçi-azərbaycançı yanaşma, milli həmrəyliyə sədaqət ümummilli liderin siyasi irsinin davamçısı Prezident İlham Əliyevin hakimiyyəti dövründə də ardıcıl olaraq davam etdirilir. İlham Əliyev ilk dəfə prezident seçildiyi 2003-cü ildə səsləndirdiyi "Mən bütün azərbaycanlıların prezidentiyəm" açıqlaması ilə həmin prinsiplərin onun üçün də dəyişməz olduğunu ortaya qoymuşdur.

Bir daha qeyd edirəm ki, bu prinsiplər dəyişməzdir, Azərbaycan iqtidarı dövlətə və dövlətçiliyə xidmət etmək istəyən hər bir qrup və ya şəxslə dialoqa və əməkdaşlığa açıqdır, öz siyasi rəqiblərini düşmən hesab etmir və onlarla ümummilli məsələlərlə bağlı müzakirə və əməkdaşlığı məqbul sayır. Eldar İbrahimovun adından yayılmış məlum fikirlər isə YAP-ın və İlham Əliyev iqtidarının mövqeyini əks etdirmir.

❑ **Əli Həsənov**
**Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi**

## Müxalifət "payız hücumu" edəcəkmi...

**Payız fəsli artıq qapımızı döyür. Ötənlərdə müxalifət partiyaları isti yayın istirahətindən sonra payızda qismən aktiv fəaliyyətə keçirdilər. Bu il payızda ölkə müxalifətinin hansı planları var?**

Qarşıdakı dövrdə mitinq məsələsi gündəmdə olacaq, yoxsa bu məsələ bir müddət üçün gündəmdən çıxıb? Siyasi aktivlik müşahidə olunacaqmı? Müxalifətin payız hücumu, tədbirləri gözlənilirmi?

**Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn** "Yeni Müsavat"a bildirdi ki, əslində bu yay şəxsən o və rəhbərlik etdiyi partiya intensiv fəaliyyət göstərib: "Başqalarını deyə bilmərəm, özümüz üçün onu deyə bilərəm ki, yaya mövsümü siyasi fəaliyyətimizin aktiv dövrü oldu. Payız aylarında bələdiyyə seçkiləri kampaniyasının xüsusi siyasi kampaniyaya çevriləcəyi qənaətində deyiləm. Amma ölkədə siyasi dəyişikliklər, islahatlar istiqamətində sosial sifariş var. Bu şüarlarla siyasi həyatın fəallaşacağı qənaətindəyəm. Müxalifət təşkilatlarının birliyinin olub-olmayacağına gəlincə, müəyyən kontaktlar qurulur. Payızda kütləvi aksiyalar keçiriləcəyi məsələsinə gəldikdə, siyasi partiyaların gündəmində kütləvi aksiyaların da olacağı barədə məlumatlar gəlir. Amma bu gün üçün şəxsən bizim gündəmimizdə kütləvi aksiya keçirmək yoxdur".

AĞ Partiyanın sədri Tural Abbaslı isə bildirdi ki, Azərbaycanda artıq uzun illərdir "Yay passivliyi, payız hücumu, yaz oyanışı" və sair kimi ifadələrin siyasi leksikonumuza daxil olması təəssüf doğurur. Sanki bütün siyasi camea bu ifadələr vasitəsilə kodlaşdırılıb. Əslində isə siyasi aktivlik və ya passivlik ilin fəsillərinə görə deyil, proseslərin inkişaf tempinə uyğun olmalıdır: "Əgər ölkədə siyasi proseslər yayda sürətlənəcəksə, biz oturub payızımı gözləməliyik? Odur ki, AĞ Partiya olaraq biz fəsillərə görə fəaliyyət planı qurmuruq. Ümumiyyətlə isə deyə bilərm ki, baş verən siyasi proseslər onu deməyə əsas verir ki, yaxın aylarda aktivlik labüddür. Yəni bizim tədbirlərdən asılı olmayaq hadisələrin təbii axını aktivlik yaradacaq. Müxalifət arasında da cəmiyyətə açıq olmasa da daxildə məsləhətləşmələr və fikir mübadilələri intensiv şəkildə aparılır. Bu hərəkətliliyin real nəticələrinin olub-olmayacağını isə zaman göstərəcək. Bir sözlə, müxalifət yalnız "payız hücumuna" deyil, hər an hakimiyyətə gəlmək uğrunda iqtidara qarşı siyasi hücuma hazır olmalıdır".

❑ **E.SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# AQTA Sabirabadda qarayaraya yoluxma faktı ilə bağlı açıqlama yaydı

**Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) Sabirabadda 2 nəfərin qarayara xəstəliyinə yoluxması ilə bağlı açıqlama yayıb. AQTA-dan APA-ya verilən məlumata görə, sentyabrın 9-da agentliyə Səhiyyə Nazirliyindən Sabirabad rayonu Qaragüney və Həşimxanlı kənd sakinləri Muradov Yunis Möhübbət oğlu və İsgəndərov Rəvan Ülvi oğlunda qarayara xəstəliyi ehtimalı ilə məlumat daxil olub.**

AQTA
AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ

Məlumat əsasında agentliyin mütəxəssislərindən ibarət araşdırma qrupu yaradılıb və hadisənin baş verdiyi əraziyə ezam olunub.

Araşdırma qrupu tərəfindən xəstəlik törədicisinin mənbəyinin müəyyən olunması məqsədilə epidemioloji və epizootoloji araşdırmalara başlanılıb.

Hazırda agentliyin mütəxəssisləri tərəfindən laborator müayinələr və epidemioloji araşdırmalar, ehtimal olunan xəstəliyin törədicisinin müəyyən edilməsi istiqamətində tədbirlər davam etdirilir.

# "Cinayət edən öz cəzasını alacaq"

## Aydın Mirzəzadə: "Kimsə dövlət büdcəsini öz cibi ilə dəyişik salırsa..."

**Hakim Yeni Azərbaycan Partiyasının (YAP) icra katibinin müavini, Milli Məclisin komitə sədri Siyavuş Novruzovun keçmiş nazirlərə xəbərdarlığı və səsləndirdiyi ittihamlar aydın səmada şimşək effekti yaradıb. Partiya funksionerinin nədən bu cür sensasion açıqlama ilə çıxış etməsi, müxalifəti maliyyələşdirmək ittihamını səsləndirərkən hansı sabiqləri nəzərdə tutduğu araşdırma mövzusuna çevrilib. Deputat, YAP Siyasi Şurasının üzvü Aydın Mirzəzadə "Yeni Müsavat"ın suallarını cavablandırdı. Müsahibəni təqdim edirik:**

***- Aydın bəy, partiyadaşınız, YAP rəhbərliyində təmsil olunan Siyavuş Novruzovun eks-nazirlərlə bağlı ittihamları ciddi rezonans doğurub. Siz bu fikirləri necə dəyərləndirirsiniz?***



- Bu gün (dünən-red.) bu məsələ ilə bağlı partiyamızın sədr müavini, icra katibi Əli Əhmədov da münasibət bildirdi. O dedi ki, bu gün vəzifədə olan və vəzifədə olmayan bütün partiya üzvlərinə eyni münasibət bəslənilir, fərq qoyulmur. Partiyanın üzvü olan hər bir kəs partiyanın siyasətinin təbliğində iştirak etməlidir. Məsələ heç də kimlərisə hədəfə götürməkdən ibarət deyil. Söhbət hər bir partiya üzvünün aktiv surətdə siyasətdə iştirakına çağırışdır. Tək vəzifədə olanda deyil, vəzifədən gedəndən sonra da üzv olduğu partiyanın, vaxtilə təmsil olunduğu hakimiyyətin mövqeyinin müdafiə edilməsində öz iştirakını göstərməkdir. O demək deyil ki, ancaq vəzifədə olduqda siyasi xətti müdafiə etmək, cavab vermək və fəal olmaq lazımdır. Vəzifədən çıxarıldıqdan sonra isə bütün işlərdən kənarlaşmağa üstünlük vermək düzgün yol deyil. Bu baxımdan dünyanın bütün ölkələrində siyasi partiyalar öz üzvlərinə, həm hakimiyyətdə təmsil olunan, həm də vaxtilə təmsil olunmuş üzvlərinə çağırış edirlər. Bu, heç də bütün keçmiş vəzifədə olanlara aid deyil. Mən vaxtilə hökumət üzvü olmuş dəyərli insanlarımızın da müsahibələrini oxudum. Bu baxımdan hər bir kəsin üzv olduğu partiyanın siyasətinin müdafiə edilməsində fəal olmasını arzulayırıq və bunu daha geniş şəkildə görmək istəyirik. Siyavuş müəllim YAP-ın İdarə Heyətinin üzvüdür, YAP-ın icra katibinin müavinidir. Yeni səlahiyyətində olduğu məsələdən danışıb. Hesab edirəm ki, cəmiyyət onu düzgün başa düşüb.

***- Kifayət qədər ciddi ittihamlardan söhbət gedir. Xaricdəki müxalifətin maliyyələşdirilməsindən tutmuş, masa üzərindəki sənədlərə qədər...***

- Mən o barədə məlumatsızam. Amma Siyavuş müəllim bildirirsə, deməli, bütün bunların hamısı var. Biz heç bir zaman istəmərik ki, Azərbaycan siyasətinə xaricdən əllər uzansın. Biz heç zaman istəmərik ki, xaricdəki siyasi qüvvələr Azərbaycanın daxili siyasətini tənzimləmək oyununu oynamaq istəsinlər. Kim onların burada oyunçusu rolunu oynamağa maraq göstərirsə və yaxud da xaricə öz imkanlarını təklif edirsə, bu, şübhəsiz ki, artıq milli maraqlara xəyanətdir. İstənilən siyasətçi dəstəyi ancaq və ancaq Azərbaycan xalqından və Azərbaycan cəmiyyətindən istəməlidir. Digər variantlar isə gec-tez onun ifşa olunmasına gətirib çıxarır.

***- Aydın bəy, bəzi hüquqşünaslar ortada kifayət qədər ciddi ittihamların olduğunu əsas gətirib məsələ ilə bağlı cinayət işinin qaldırılmasını zəruri sayırlar. Sizcə, bu istiqamətdə addımlar atıla bilərmi?***

- Yox, mən hesab etmirəm ki, burada mütləq cinayət işi qaldırılmalıdır. Siyavuş müəllim fikrini bildirdi. Buradan o tərəfə özü üçün nəticə çıxarmaq artıq hər kəsin öz işidir.

***- Məsələ sosial şəbəkələrdə də geniş müzakirə olunmaqdadır. Belə yanaşmalar var ki, əgər hansısa keçmiş nazir milyardı talayıb kənara çəkilibsə, o halda onun cəzalandırılması, taladığı vəsaitlərin büdcəyə qaytarılması tələb olunmalıdır, nəinki hakimiyyəti müdafiə mövqeyi. Bu məsələyə sizin münasibətiniz maraqlıdır.***

- Mən sizə deyim ki, Azərbaycandakı siyasi hakimiyyət heç bir zaman heç kəsin cinayətini ört-basdır etməyib. Hər kəs öz layiq olduğu cəzasını alıb. Gözümüzün qabağında nə qədər keçmiş nazirlərin, hakimiyyət təmsilçilərinin məhkəmələri olub. Bunun özü göstərir ki, kimsə dövlət büdcəsini öz cibi ilə dəyişik salırsa, kimsə dövlətə xəyanət yolunu tutursa, o, mütləq gec-tez cəzasını alacaq, buna kiminsə şübhəsi olmasın. Birincisi, təmsil olunduğun partiyanın siyasətinin təbliğində, onun uğur qazanmasında sən də öz töhfəni ver! Digər tərəfdənsə, cinayət edən öz cəzasını alacaq.

***- BAXCP sədri Qüdrət Həsənquliyev deyib ki, indi növbəti dəfə iqtidarda özünütəmizləmə işinə başlanılmasının zamanı çatıb. "Əgər bu gün bu edilməsə, gələcəkdə proses daha ağrılı və çətin olacaq. İqtidar Azərbaycanı və özünü qorumaq üçün hərəkətə keçməlidir", deputat həmkarınız bildirib. Müxalifət təmsilçisinin bu fikirləri ilə bağlı nə deyə bilərsiniz? Gözləmək olarmı ki, növbəti cəzalandırma prosesinə start veriləcək?***

- Mən hesab etmirəm ki, bu, kampaniya xarakteri daşımalıdır. Yaxud da anons verilir ki, nəsə bir kampaniya başlayacaq. Sadəcə olaraq, hər bir kəsdən qanunlara hörmətlə yanaşması, üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməsi tələb olunur. Bundan kənara çıxan, qanunu pozan, cinayət edən, büdcəyə göz dikən insanlar isə artıq məhkəmə qarşısında cavab verir. Bunun hansısa bir dövrü, şəraiti gözləməyə ehtiyac yoxdur. Aşkarlandıqda, artıq məhkəmə qarşısında cavab verməlidir. Bununla bağlı faktlar yaxın tariximizdə var. Heç də uzaq olmayan günlərdə bir neçə məhkəmə keçirilib.

***- Aydın bəy, siz də Siyasi Şuranın üzvüsünüz. Siyavuş Novruzov YAP Siyasi Şurasının üzvü olan sabiqləri də ittiham etmişdi. Maraqlıdır, həmin sabiqlərlə son dəfə nə zaman görüşmüşünüz, partiyada bir araya gəlmisiniz?***

- Demək olar ki, Siyasi Şuranın bütün üzvləri ilə ara-sıra görüşürük. Biri ilə daha tez-tez, digəri ilə müəyyən vaxtdan sonra. Hər biri ilə də yaxşı münasibətlərimiz var.

***- Bu xəbərdarlıqdan sonra keçmiş nazirlərdən kimsə sizə telefon açıb "mən də sizinləyəm" dedimi?***

- Yox. Mənə elə bir zəng olmayıb. Bu müsahibədən sonra məncə, hər bir kəs o fikirləri oxuyub bir daha düşünməlidir: mən Azərbaycan üçün, bu cəmiyyət üçün nə etmişəm? Mənə elə gəlir ki, bunun üçün mütləq vəzifədə olmaq, YAP üzvü olmaq lazım deyil. Hər kəsin bu cəmiyyətin daha yaxşı olması üçün götürəcəyi yük var və o yükü daşıya bilər.

***- Sabiq məmurlara xəbərdarlıqların edilməsinin ardınca Ziya Məmmədovun ofisinin söküldüyü barədə xəbər yayıldı. Sizcə, təsadüfdür?***

- Bilmirəm. Məlumatsızam.

❑ **Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

# Baş Prokurorluq "milyardları altına yığanları" istintaqa çağıra bilər

## Tanınmış vəkil: "Siyavuş Novruzovun açıqladığı məlumatların araşdırılması üçün qanuni əsaslar ortadadır"

**Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, YAP-ın icra katibinin müavini Siyavuş Novruzovun açıqlamaları geniş müzakirələrə yol açıb. Siyavuş Novruzov "Yeni Müsavat"a açıqlamasında YAP-ın üzvü olaraq vaxtilə yüksək vəzifə tutmuş sabiqləri hazırda hakimiyyətə qarşı əks təbliğat aparanlara susmaqda, xaricdə olanları maliyyələşdirməkdə ittiham edib. Siyavuş Novruzovun dedikləri istintaq başlamaq üçün toplanan materialları xatırladır.**



Onun dediklərindən sitatlar: "Keçmişdə dövlət rəhbərliyində işləmiş nazirlər var. Biri 20 il işləyib, biri 18 il, biri 15 il, digəri 10 il. Bunlar hamısı çəkilib qırağa, mövqeyini bildirmir. Soruşan gərək, atan, baban sənə vəzifə vermişdi?!"

"Hələ bəzi problemləri də elə siz, keçmişdə nazir vəzifələrində çalışanlar yaradırsınız, bunu unutmayın! Ya çıxın, ortaya mövqeyinizi qoyun, ya da sizinlə bizim davamız daha gərgin olacaq! Hərəsi milyardı yığıb altına, qaçıb gizləniblər. Ona görə gəl ortaya, rəhmətlik ulu öndər demişkən, "mövqeyini bildir!"

"Xaricdə oturanları maliyyələşdirmə! Masamın üzərində hamınızın siyahısı var, kimə nə verirsiniz".

Siyavuş Novruzovun açıqlamaları, göründüyü kimi, çox ciddi ittihamları özündə ehtiva edir. Maraqlıdır, bu cür ittihamlar hüquq-mühafizə orqanları tərəfindən araşdırma predmeti olacaqmı?

Siyavuş Novruzov həmin araşdırmalar çərçivəsində dindirilə bilərmi? İcraçı katibdən masasının üzərindəki eks-nazirlərin siyahısı götürülə, onların kimə nə vermələri məsələsi istintaq araşdırmasının mövzusu ola bilərmi?

"Yeni Müsavat"ın əməkdaşı bu və digər suallarla Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanova müraciət edib. Xidmət rəhbəri məsələ ilə bağlı ictimaiyyətə geniş açıqlama verəcəklərini bildirib. Lakin günün sonuna qədər açıqlama verilməyib.

**Tanınmış vəkil Cavad Cavadov deyir ki, Cinayət Prosessual Məcəlləsinin 207-ci maddəsi ilə cinayət işinin başlanması üçün əsaslar müəyyən olunub:** "Həmin əsaslardan biri də KİV-də gedən məlumatlar üzrə cinayət işi başlanmasını ehtiva edir. Yəni Siyavuş Novruzovun açıqlamasında sadaladığı məlumatlar cinayət təqibinin başlanması üçün əsas hesab edilə bilər. Siyavuş Novruzovun qaldırdığı məsələlərdə cinayətin əlamətinin olub-olmamasını araşdırmaq üçün prokurorluq orqanı hərəkətə keçməlidir. Onun açıqlamasında cinayət işinin başlanması üçün kifayət qədər qanuni əsaslar var".

**Cavad Cavadlı deyir ki, Siyavuş Novruzovun açıqlamasında konkret olaraq korrupsiya ittihamı yer alıb:** "Deyir ki, sabiq nazirlər milyardları yığıblar altlarına. Prokurorluq ilk növbədə aydınlaşdırmalıdır ki, konkret olaraq hansı nazirlərdən söhbət gedir. Həmin nazirlər milyardları necə, haradan əldə ediblər. Həmin milyardların əldə edilməsi, ələ keçirilməsi, mənimsənilməsi yolları, iştirakçılar, gizli dəstəkçilər, cinayət törədilərkən tərəflərin rolları müəyyən olunmalıdır. Siyavuş Novruzovun açıqlamasında qeyd edilənlər prokurorluq üçün araşdırmalar başlamağa qanuni əsas hesab edilir".

**Cavad Cavadov bildirib ki, vəzifə cinayətlərinin qanunla araşdırılması əsasən prokurorluq orqanlarına aiddir:** "Amma araşdırma üçün təhqiqatı digər hüquq-mühafizə orqanları da apara bilərlər. Siyavuş Novruzov məlum açıqlamadan sonra ərizəçi kimi də prokurorluğa müraciət edə bilər. Amma açıqlama verirsə, müəyyən məlumatlar da verirsə, prokurorluq orqanı KİV-də gedən xəbərlər əsasında ən azından təhqiqatı başlamalıdır. Ən azından aydınlaşdırılmalıdır ki, belə bir açıqlama veribmi? Yəni çağırıb bu məsələləri aydınlaşdırmalıdırlar. Deputat olmasına görə çağırmasalar da, müraciət edə bilərlər ki, əlinin altında olan nazirlərin siyahısını təqdim etsin. Bilinsin ki, xaricdə olanları maliyyələşdirən korrupsioner nazirlər kimlərdir. Cinayət Prosessual Məcəlləyə əsasən Siyavuş Novruzovun açıqladığı məlumatların araşdırılması üçün qanuni əsaslar ortalıqdadır".

**Cavad Cavadov deyir ki, Siyavuş Novruzov çox ciddi ittihamlar səsləndirib:** "Hakim partiyanın icra katibi, deputat belə bir məlumatlar səsləndiribsə, bunu araşdırmaq üçün hərəkətlilik olmalıdır. Azərbaycanda vur-tut 15-20 eks-nazir olar. Həmin nazirlərin siyahısını hazırlamaq üçün də dağa-daşa düşmək gərək deyil. Siyavuş Novruzov konkret olaraq 4 eks-nazir haqda danışıb, onların iş stajlarını da göstərib. Qaldırılıb baxılmalıdır ki, 20 il, 18 il, 15 il, 10 il çalışıb və bu gün milyardları olan nazirlər kimlərdir. Onların xaricdə kimlərə pul ötürmələri məsələsi araşdırılmalıdır".

**Cavad Cavadov onu da vurğuladı ki, ittihamlar təsdiqini tapmasa, eks-nazirlərin Siyavuş Novruzovdan təkzib vermək, vurduğu mənəvi ziyana görə təzminat tələb etmək hüquqları var:** "Düzdür, Siyavuş Novruzov konkret ad çəkmir. Amma bu o demək deyil ki, onun məsuliyyəti yoxdur. Başqa bir tərəfdən də qanunverici orqanda təmsil olunan bir şəxsin qaldırdığı məsələlərə ciddi reaksiya verilməlidir. Ortada ciddi ittihamlar var".

Siyavuş Novruzovun məlum açıqlamalarından sonra eks-nazirlərdən yalnız keçmiş ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Bağırov reaksiya verib.

Modern.az-a açıqlama verən Hüseyn Bağırovun sözçüsü Vüsal Məmmədov eks-nazirin YAP-ın Siyasi Şurasında fəaliyyətini davam etdirdiyini deyib. Bildirib ki, Hüseyn Bağırov ölkə xaricində və ya ölkə daxilində heç kimi maliyyələşdirmir.

❑ **E.MƏMMƏDƏLİYEV**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 186 (7356) 10 sentyabr 2019

Şəfəq-Asiman üzrə hasilatın pay bölgüsü haqqında Sazişin operatoru kimi BP elan edir ki, Şəfəq-Asiman üzrə kəşfiyyat qazma layihəsinin Ətraf Mühitə və Sosial-iqtisadi Sahəyə Təsirinin Qiymətləndirilməsi (ƏMSSTQ) sənədinin layihə variantını müzakirə etmək üçün ictimaiyyətlə görüş keçiriləcək.

bp

BP bütün maraqlı tərəfləri bu görüşdə iştirak etməyə dəvət edir. Görüş aşağıdakı ünvanda və tarixdə keçiriləcək:

**"HOLIDAY INN" mehmanxanası (Kövkəb Səfərəliyeva küçəsi 5, Bakı, Azərbaycan, AZ 1010), "Moskva" zalı,**

**11 sentyabr 2019-cu il**
**10:00 - 12:00**

Görüşdə sənəd haqqında təqdimatlar olacaq və auditoriyanın sualları və şərhləri ətrafında müzakirə keçiriləcək.

5 avqust 2019-cu il tarixindən etibarən ƏMSSTQ sənədinin layihə variantının nüsxələri (və rəy formaları) ictimaiyyətin tanış olması üçün aşağıdakı ünvanlarda yerləşdirilib:

- BP-nin Xəzər Mərkəzi ofisinin qəbul şöbəsi: Neftçilər prospekti 153
- M.F. Axundov adına Milli Kitabxana: Xaqani küçəsi 29
- Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Kitabxanası: Hüseyn Cavid küçəsi 31
- Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin kitabxanası: Azadlıq prospekti 20
- Orxus İctimai Ekoloji İnformasiya Mərkəzi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi: Bəhram Ağayev küçəsi 100a
- Bakı Kitab Mərkəzi: Üzeyir Hacıbəyli küçəsi 5, Qoqol küçəsi 2
- Libraff kitab mağazası: Hüseyn Cavid küçəsi 186 (Mirvari Park kompleksi, Blok D)
- Bakı Ali Neft Məktəbinin kitabxanası: Yeni Salyan şosesinin 3-cü km (Bakı Ali Neft Məktəbinin kampusu)

Bundan əlavə, sənədin tam versiyası və qısa xülasəsi (Azərbaycan və ingilis dillərində) BP-nin vebsaytında yerləşdirilib: **https://www.bp.com/en_az/caspian/sustainability/environment/env-and-social-documentation/Shafag-Asiman-EIA.html**

BP bütün maraqlananları ƏMSSTQ sənədinin layihə variantı ilə bağlı şərh və rəylər təqdim etməyə dəvət edir. Şərhlər görüş ərzində, **www.bp.com/caspian** vebsaytına daxil olmaqla və ya **esiafeedback@bp.com** elektron ünvanına məktub göndərməklə təqdim edilə bilər.

Əlavə məlumat üçün BP-nin tələblərə riayət və icazələr üzrə qrup rəhbəri Səadət Qafarova ilə əlaqə saxlaya bilərsiniz:
E-poçt: **esiafeedback@bp.com**
Tel.: (012) 4046919 və ya (055) 2259013

YENİ MÜSAVAT
N 186 (7356) 10 sentyabr 2019

# Hakim partiyanın "qara siyahı"sına düşən Əli Abbasov haradadır?

**Bir neçə gündür ölkə mətbuatında müzakirə mövzusu YAP-ın icra katibinin müavini, deputat Siyavuş Novruzovun sabiq nazirlərlə bağlı "Yeni Müsavat" qəzetinə verdiyi açıqlamalardır.**

## Sabiq nazir milyonlar xərcləyərək canını qurtarmışdı; onun Bakıda və bölgələrdə olan mülklərinin, ailə üzvlərinin adına xarici ölkələrdə olan əmlaklarının dəyəri milyonlarla ölçülür



Hakim partiyanın funksioneri sensasion sayılacaq açıqlamasında bildirib ki, bir sıra keçmiş nazirlər vəzifələrindən uzaqlaşdıqdan sonra "qeyb"ə çəkiliblər.

S.Novruzov deyib ki, keçmiş nazirlər 10-20 il vəzifədə qalıblar, hərəsi özünə milyardlar qazanıb, amma son zamanlar müxalifətin hökumətə qarşı hücumlarına heç bir reaksiya vermir, mövqelərini bildirmirlər.

Eks-nazirlərə xəbərdarlıq edən S.Novruzov həmin nazirlərin bəzilərinin xaricdə oturanları maliyələşdirdiyini də açıqlayıb. Əlavə edib ki, həmin sabiq nazirlərlə bağlı dosyelər masa üzərindədir və onların kimlərə maliyyə ayırdığı aydındır.

Siyavuş Novruzovun haqqında danışdığı sabiq nazirlər kimlərdir? Onlar heç şübhəsiz ki, rabitə naziri Əli Abbasov, nəqliyyat naziri Ziya Məmmədov, təhsil naziri Misir Mərdanov, MTN naziri olmuş Eldar Mahmudovdur.

Bu və növbəti yazılarımızda sabiq nazirlərin vəzifədən uzaqlaşdırılma səbəbləri və onların azadlıqda qalmaq yolunda çəkdikləri "əziyyətləri" diqqətə çatdıracağıq.

Əvvəlcə sabiq rabitə naziri Əli Abbasovdan başlayaq.

Əli Abbasovun vəzifədən uzaqlaşdırılması "MTN işi"nin bir parçası idi. Əli Abbasov da Eldar Mahmudovun əlaltılarından idi və sonda o da "qurbana" çevrildi.

Abbasov rəhbəri olduğu nazirliyin onlarla vəzifəli şəxsi həbs edildiyi halda, özünü necə xilas etdi? Əlbəttə ki, milyonlar ödəyərək. Çünki "Rabitə işi"nə görə davam edən məhkəmə işlərində sabiq nazir adının çəkilməsini istəmirdi. Bunun qarşılığında isə o, keçmiş işçilərinin dövlətə vurduğu milyonları ödəyirdi.

Əli Abbasov canını həbsdən qurtarıb özünə yeni kreslo tapsa da, onun işçilərinin bəziləri həbsdədir, bəziləri 5 ilə yaxın aldıqları cəzaların çəkib və azadlığa çıxıblar, bəziləri isə uzun illər çalışdıqları rabitə sahəsindən qovulublar.

Həmin məhkəmə işlərindən xatırlatma:

Azərbaycanda baş tutan ən səs-küylü məhkəmə işlərindən biri olan "Rabitə işi" yekunlaşana qədər hər kəs Əli Abbasov barəsində veriləcək qərarı maraqla gözləyirdi. Ona görə ki, həm cinayət işi materiallarında, həm də sabiq nazirin həbs edilən işçilərinin dediklərindən məlum olurdu ki, Əli Abbasov heç də azadlıqda qalmağı haqq etmirmiş. Çünki həbs edilən rabitə işçilərinə qarşı elan olunmuş ittihamlar onu deməyə əsas verirdi ki, Əli Abbasov baş verənlərdən xəbərsiz olmayıb.

Xatırladaq ki, həmin məhkəmə prosesləri, cinayət işi materiallarında yer alan faktlar "Yeni Müsavat" qəzetində də geniş şəkildə çap edilmişdi.

Həmin məlumatlardan aydın olurdu ki, dövlət büdcəsindən ayrılmış milyonların oğurlanması Əli Abbasovun rəhbərliyi altında həyata keçirilib. Bunu nazirliyin aparat rəhbəri olmuş, daha sonra həbs edilmiş Vidadi Zeynalov dəfələrlə məhkəmə iclaslarında açıqlamışdı.

Həmçinin bu iş üzrə həbs edilən 11 nəfərin əksəriyyəti onlara qarşı elan olunmuş ittihamların niyə Əli Abbasovdan yan keçdiyinə etiraz edir, haqlı olaraq da dilə gətirirdilər. Axı necə mümkün ola bilərdi ki, 100 milyon manata yaxın dövlət əmlakının mənimsənilməsindən Əli Abbasov xəbərsiz olsun? Əgər işçiləri Əli Abbasovdan xəbəsiz bu əməlləri törətmişdilərsə, belə olan halda da sabiq nazir də məsuliyyət daşımalı idi...

Lakin Əli Abbasov "ağıllı" tərpəndi. Bütün günahı "kassiri" olmuş Vidadi Zeynalovun boynuna "yükləyə" bildi.

Daha sonra Əli Abbasov adının hallanmaması üçün müəyyən yollara əl atmağa başladı. Məhkəmə iclaslarında onun adını çəkən işçilərinin dövlətə vurduğu zərərləri ödəməyi də öz öhdəsinə götürdü.

Hazırda Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) prezidentinin müşaviri olan Əli Abbasov nə az, nə çox 10 milyon manatı elə "Rabitə işi" başlayanda dəymiş zərər kimi ödəmişdi.

"Rabitə işi"nin sonunda, gözlənildiyi kimi, Əli Abbasov azadlıqda qaldı...

11 il nazir postunda oturan Əli Abbasov bu milyonları necə qazanmışdı? "Rabitə işi" ilə bağlı çap edilən məhkəmə yazılarını xatırlayanlar bilər ki, nazirlikdəki "pul yumaq sistemi" necə işləyib. Bu sistem sabiq nazirə hər ay milyonlar qazandırıb.

Heç şübhəsiz ki, Siyavuş Novruzovun xəbərdarlıq etdiyi eks-nazirlərdən biri də Əli Abbasovdur.

Əli Abbasovun Bakıda və bölgələrdə olan mülklərinin, ailə üzvlərinin adına xarici ölkələrdə olan əmlaklarının dəyəri milyonlarla ölçülür. Yəqin ki, hakim partiya da bundan xəbərdardır və Siyavuş Novruzov "dosye masanın üzərindədir" deyərkən bunu nəzərdə tutur.

Siyavuş Novruzovun nazirlərlə bağlı "heç bir mövqe bildirmirlər" deyərək irad tutmasını Əli Abbasova da şamil etmək olar. Çünki sabiq nazir hökumətlə müxalifət arasında gedən virtual savaşda heç vaxt mövqe bildirməyib. Abbasov bununla da hakim partiyanın "qara siyahı"sına düşüb.

Qeyd edək ki, 2015-ci ilin noyabr ayının 13-də Baş Prokurorluğun Rabitə və Yüksək Texnologiyalar Nazirliyindəki həbslərlə bağlı yaydığı rəsmi məlumata görə, nazirliyin aparat rəhbəri Vidadi Zeynalovun qulluq mövqeyindən sui-istifadə edərək nazirliyin strukturuna daxil olan ayrı-ayrı qurumların vəzifəli şəxsləri ilə qabaqcadan razılaşmaqla həmin strukturlar tərəfindən işlərin görülmədiyi, tam yerinə yetirilmədiyi, avadanlıqlar alınmadığı, istifadə olunan avadanlıqların, xidmətlərin qiymətlərinin isə 4-5 qat şişirdilməsi və digər üsullarla işlərin və xidmətlərin guya yerinə yetirilməsini özlərinin himayə etdikləri, yaxın münasibətdə olduqları şəxslərin adına olan özəl şirkətlər tərəfindən saxta sənədlər əsasında rəsmiləşdirməsini təmin etməklə müvafiq müəssisələrin ayrı-ayrı banklardakı hesabına köçürülmüş 73 milyon 590 min manat pul vəsaitinin nağdlaşdırılmaqla mənimsənilməsini və israf edilməsini təşkil etməsində şübhələr üçün əsaslar müəyyən edilib.

Bundan başqa, Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən RYTN sistemində həyata keçirilmiş yoxlamalar nəticəsində "Aztelekom" MMC-nin sabiq baş direktoru Məhəmməd Məmmədov, "Bakı Telefon Rabitəsi" İstehsalat Birliyinin sabiq rəhbəri Beytulla Hüseynov, "Bakı Telefon Rabitəsi" İstehsalat Birliyinin baş mühasibi Anar Mustafayev, "AzİnTelekom" MMC-nin sabiq baş direktoru Cəlil Cəfərov, "Azərpoçt" MMC-nin sabiq baş direktoru Qəmbər Bəybalayev, "Optik Rabitə, Tikinti və Quraşdırma" MMC-nin keçmiş baş mühasibi Səhrab Hümbətov, "3 nömrəli Rabitə Təmir Tikinti", "Rabitə Mülki Tikinti" MMC-lərinin direktoru Emin Məmmədov, "Bakı Rabitə Təmir Tikinti" və "Təmir Təchizat Servis" MMC-lərinin direktoru Bayram Vəliyev, "Optik Qurğular" İdarəsinin rəisi Namazəli Məmmədov və "Aztelekom" MMC-nin baş mühasibi Oktay Rüstəmov da saxlanılmışdı.

Növbəti yazılarda digər sabiq nazirlərin işdən çıxarılma səbəbləri və xərclədikləri milyonlar haqda da məlumat verəcəyik.

❑ **İlkin MURADOV**
**"Yeni Müsavat"**

# "Etibarlı gələcəy"in keçmişi və indisi



**Xalid KAZIMLI**

**30 il öncə xalq hərəkatının əsas simalarından, liderlərindən biri olan Etibar Məmmədovun fəal siyasətə qayıtmasına ictimai fəalların münasibəti o qədər kəskindir ki, bu qədəri gözlənilməzdir.**

Bu, o adamdır ki, 21 il öncə, 1998-ci il prezident seçkisində seçicilərdən seçkinin ikinci turuna adlamağa bəs edəcək qədər səs almışdı.

Bunu hətta o dövrdə Etibar Məmmədovun siyasi personasına ciddi iradları olan müxalifətçilər də etiraf edirdilər. Onların izahı bundan ibarət idi ki, bəli, bizim boykot etdiyimiz seçkidə E.Məmmədov kifayət qədər səs alıb.

O, həmin səsləri bu xalqdan, bu seçicilərdən almışdı. O zaman belə anlaşılırdı ki, xalq E.Məmmədovun 1993-cü ildə buraxdığı səhvi, silahlı qiyamçılarla müttəfiq olaraq, Elçibəy hakimiyyətinin devrilməsində iştirakını ona bağışlayıb.

Bəs birdən-birə nə oldu ki, E.Məmmədovun 1991-93-cü illərdə ard-arda buraxdığı siyasi səhvlər yada düşdü və bu üzdən onun siyasətə dönüşünə bu sayaq mənfi reaksiya var?

Məsələnin mahiyyəti bəsitdir: xalq son 30 ildə dəfələrlə manevr edən, həmişə bulanıq suda balıq tutmağa çalışan, əlini daşın altına qoymayan, amma bina tikilib başa gələndə "mən də varam" deyə hücrə tələb edənləri sevmir.

Amma E.Məmmədovu "əlini daşın altına qoymayan" adlandırmaq insafsızlıq olar. O, bir neçə dəfə əlini daşın altına qoyub.

Birinci dəfə 1990-cı ilin əvvəlində o, xalq hərəkatının liderlərindən biri olaraq rus imperiyasına qarşı silahlı mübarizə üsulu təklif etmiş, bu "daş"ın ağırlığını öz üzərinə götürməyə çalışmış, son nəticədə Moskvadakı Lefortovo zindanının soyuq və boz daşları arasında 10 ay həbsdə yatmışdı.

İkinci dəfə 1993-cü ildə Surət Hüseynovun Azərbaycan demokratiyasının başına daş salanda, hədəfə atılan üç daşdan biri də E.Məmmədova aid idi. Ancaq o, qurulan yeni iqtidar komandasında yer almadı, üstəlik, özünü də daş-qalaq etdilər - partiyası ikiyə bölündü.

Bir də 1998-ci ildə aparıcı müxalifət partiyalarının (Müsavat, AXCP, ADP) boykot etdiyi seçkidə "boykotu boykot" taktikası yeridən Etibar Məmmədov "Etibarlı gələcək Etibarla gələcək" kimi unikal seçki şüarı ilə ortaya çıxdı və gözlənilmədən böyük uğur qazandı. Amma bu uğur sonradan ona baha başa gəldi. O vaxta qədər "loyal müxalifət" sayılan AMİP-in radikallaşması E.Məmmədov üçün siyasi və maddi planda itkilərlə müşayiət olundu.

Düzdür, partiya tezliklə öz məcrasına qayıtdı və "destruktiv müxalifət"ə qoşulmadı, amma atılan daş sapanddan çıxmışdı, hakimiyyət dairələri artıq AMİP-ə etibar etmirdilər. Ona görə də sonrakı seçkilərdə partiya parlamentdə mandat qazana bilmədi.

Əslində o zaman Etibar Məmmədovun fəal siyasətdən çəkilməsi məcburiyyət üzündən oldu. 2003-cü ildə indiki AXCP ilə müttəfiq olaraq seçkiyə gedən AMİP beş il öncəki nailiyyətinə yaxın gələ bilmədi, seçkinin autsayderlərindən oldu. Bundan sonra AMİP-də heç bir perspektiv görməyən tanınmış şəxslər partiyadan getdilər, partiyanın "köhnə qvardiyası" dağıldı.

Bundan sonra artıq Etibar Məmmədov üçün siyasətdə qalmağın heç bir faydası yox idi. Nə əvvəlki kimi siyasi arenanın parlaq fiqurantı ola bilirdi, nə də ona deputat mandatı verirdilər. Bu halda o, tez-tez qurulub-dağılan bloklara üzv olmaqdansa şəxsi mənfəətini üstün tutdu və kölgəyə çəkildi, qabağa təcrübəsiz silahdaşlarını verdi ki, heç olmasa, partiyanın mövcudluğunu qoruyub saxlasınlar.

E.Məmmədova qarşı kəskin mənfi münasibətin səbəbi budur. Bu illər ərzində siyasi arenada bacardıqları, mümkün olduğu qədər fəaliyyət göstərən, mübarizə aparan adamlar razılaşa bilmirlər ki, o, yenidən irəli keçərək öz ətrafında yeni bir güc mərkəzi yaratmağa çalışacaq.

Əslində Etibar Məmmədovun yeni və güclü partiya yaratmaq, yaxud AMİP-i gücləndirmək imkanı daha çoxdur. O, israrlı, məqsədyönlü olsa, AMİP-i yenidən siyasi arenanın müxalifətə aid cinahının 2-3 güclü aktyorundan birinə çevirə bilər. Danmaq, hesablaşmamaq olmaz, onun hazır funksionerləri və sabit elektoratı var.

Sual oluna bilər: bəs bu elektorat 2003-cü ildə hardaydı? Cavab budur: həmin elektorat 2003-cü ildə iqtidardaydı və mövcud iqtidar üçün çalışırdı. Bu gün isə həmin elektoratın mühüm kəsimi müxtəlif səbəblər üzündən kənardadır və hakimiyyətdən incikdir. Onun daha ambisiyalı və cürətli hissəsi təbii olaraq, "Erməniştanlıların yeni lideri"nin ətrafında birləşə bilər.

Hər halda, E.Məmmədovun siyasətə dönüşü boşuna deyil. Ona "qabağa durmağının vaxtıdır" deyənlər var.

YENİ MÜSAVAT
N 186 (7356) 10 sentyabr 2019

# "Hakimiyyət müxalifəti özündən kənar qoymamalıdır" - partiya sədri

## Sərdar Cəlaloğlu: "Müxalifət parlamentdə, efirdə olmalı, iqtidarla debatlara getməli, dialoqlar təşkil edilməlidir"

**Müxalifəti zəif olan ölkələr hər şeyə qadir olmurlar. O ölkələrdə klassik, sivil və sekulyar müxalifət güclü fəaliyyət göstərə bilirsə, həm dövlətlərin inkişafı, həm milli təhlükəsizliyin təminatı baxımdan müsbət nəticələr verir. Çünki müxalifət dövlətin sütunudur, milli maraqları hər zaman üstün tutur, kənar təsirlərə uymur, dövlətçilik anlayışı olur, hətta iqtidarın düşdüyü kritik geosiyasi şəraitdən çıxmasında böyük dəstəyi olur.**



Bu baxımdan sınaqdan çıxmış, ənənəvi müxalifətlərin güclənməsinə, onların siyasi fəaliyyətinin buxovlanmasına imkan verməməli, parlamentdə yer almasına şərait yaradılmalıdır.

Söhbət heç də sistemə və hakimiyyətə xidmət edən müxalifətçilikdən getmir. Sadəcə, sivil müxalif partiyaların aktiv, güclü olması dövlətin üzləşə biləcəyi milli təhdidlərə önləyə bilər. Əks təqdirdə, zəif, həlqəsi daralmış müxalifətin yerini radikalizm, başqa paytaxtlara bağlı ideologiyalardan qidalanan qüvvələr, şiddət, söyüş, qisasçılıq xəttini özünə ana kurs seçən marginal qruplar tutmağa başlayır. Necə ki, son illərdə Azərbaycanda ənənəvi müxalifətin kifayət qədər zəifləməsi bu problemləri meydana çıxarıb. Bəs necə etməli? Ölkəni milli təhlükələrdən sovuşdurmaq üçün hansı addımlar atılmalıdır?

**ADP sədri Sərdar Cəlaloğlunun "Yeni Müsavat"a bildirdiyinə görə, ölkələrin qüdrəti onun siyasi gücü ilə ölçülür. ADP lideri hesab edir ki, müxalifət siyasi institutdur, kadr bankıdır, dövlətə siyasətçilər yetişdirir.**

"Bizdə bunu qəbul eləmədilər. Müxalifət dövlətçi kadrlar hazırlayır, alternativ ideyalar verir. İndiki halda müxalifət zəifdirsə, bunu dövlətçiliyin zəifləməsi kimi qiymətləndirmək lazımdır".

**S.Cəlaloğlunun fikrincə, Azərbaycanda siyasi münasibətlər düzgün qurulmayıb:** "Müxalifət parlamentdə, efirdə olmalıdır, iqtidarla debatlara getməlidir, dialoqlar təşkil olunmalıdır, hakimiyyət bir neçə partiya lideri ilə məsləhətləşmələr aparmalıdır. Bu, milli təhlükələri qabaqlamaq üçün siyasətdə ən zəruri həqiqətlərdir". **S.Cəlaloğlunun sözlərinə görə, hakimiyyət müxalifəti özündən uzaqlaşdırmaqla milli təhlükələrdən necə qorunmağın yollarını öyrənməyi rəqib düşərgədən məhrum edir:**

"Tutaq ki, biz müxalifət olaraq məlumatsızıq, bilmirik ki, ölkəni gözləyən milli təhlükələrdən necə müdafiə olunaq, hansı işlər həyata keçirək. Əgər biz bunları bilmiriksə, seçkidə qalib gəlib iqtidar olanda necə işləyəcəyik? Yəni hakimiyyət müxalifəti özündən kənar qoymamalıdır. Məsələn, Heydər Əliyevin vaxtında müxalifətlə görüşlər olub. Bu gün iqtidara bəzi qüvvələr müxalifətlə ünsiyyətə getməyə imkan vermir".

**ADP sədri hesab edir ki, iqtidarla müxalifət milli məsələlərdə müzakirələr aparmalıdır:** "Süni surətdə iqtidar-müxalifət münasibətlərini pisləşdirənlər var. Onlar təkcə iqtidarda deyil, müxalifətdə də var. Bu münasibət xarici qüvvələrin xeyrinə işləyir. Elə münasibət qurulmalıdır ki, dialoq mühiti yaransın. Ona görə də Rusiya, İran, Qərb dairələrində bu düşmənçilikdən istifadə edə bilən, müstəqilliyimizi istəməyən qüvvələr var".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# Türkdilli dövlətlərin kəşfiyyatı toparlandı: ortaq mərkəz nə vəd edir?

## Asim Mollazadə: "Bu əməkdaşlıq formatı türkdilli dövlətləri bir-birinə daha da yaxın edəcək"

## Nəzakət Məmmədova: "Bu, terrorçuluğa və radikallaşmaya qarşı mübarizənin genişlənməsinə daha da yardım edə bilər"





**Bakıda Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının XXII iclası da keçirilib. Dövlət Təhlükəsizlik Xidmətinin rəisi general-leytenant Əli Nağıyev Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının Türkiyənin Ankara şəhərində Daimi Katibliyinin təsis edilməsinin əməkdaşlıq sahələrində birgə fəaliyyətə müsbət təsirini göstərəcəyinə, yeni reallıqlar nəzərə alınmaqla işgüzar münasibətlərin effektivliyinin yüksəlməsinə əlverişli şərait yaradacağına ümidvar olduğunu söyləyib.**

Dünyada və regionda artan terror risqlərini, müxtəlif terror şəbəkələrinin aktivləşməsini, ölkələri, xalqları təhdid etməsini nəzərə alsaq, türkdilli ölkələrin ortaq kəşfiyyat mərkəzinin yaradılmasının perspektivi varmı?

Ankarada mənzillənən mərkəzin fəaliyyəti Azərbaycan üçün hansı müsbət əhəmiyyət daşıyır?

**Deputat Asim Mollazadə** "Yeni Müsavat"a bildirdi ki, digər sahələrdə olduğu kimi, bu sahədə də türkdilli dövlətlərlə yaxınlıq olduqca vacibdir. A.Mollazadənin sözlərinə görə, bu əməkdaşlıq formatı türkdilli dövlətləri bir-birinə daha da yaxın edəcək. Deputat türkdilli ölkələrlə iqtisadi, mədəni əməkdaşlıq olduğunu vurğuladı: "Mən TÜRKSOY-un fəaliyyətini xüsusi qiymətləndirirəm. Mənə elə gəlir ki, bütün sahələrdə əməkdaşlığımız varsa, bizi birləşdirən dəyərləri də müdafiə etməliyik və təhlükəsizlik məsələləri istiqamətində atılan bu addım çox mühümdür".

**Politoloq Nəzakət Məmmədova**nın sözlərinə görə, bu, regional təhlükəsizlik əməkdaşlığının genişlənməsinə, terrorçuluğa və radikallaşmaya qarşı mübarizənin genişlənməsinə daha da yardım edə bilər: "Dünyada terror təhlükəsinin hələ də mövcud olduğu bir dövrdə, ələlxüsus, Türkiyənin, Mərkəzi Asiya türkdilli respublikalarının terrora məruz qaldığı bir dövrdə bu cür əməkdaşlığın institutsionallaşması mühüm hadisədir. Bu, regional təhlükəsizliyin inkişafında vacib hadisə hesab oluna bilər".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# Müxalif birlikləri dağıdan səbəblər - "update" təklifi

## Əli Orucov: "Bir özü, bir papkası" olan partiya sədri elə iddialara düşür ki..."

**Müxalifətin yaratdığı daha bir birlik - Azərbaycan Xalq Hərəkatı qürub çağını yaşayır. İki hissəyə parçalanan hərəkat, faktiki olaraq, tarix olmaq üzrədir. Halbuki AXH yaradılan ilk aylarda bu qurum siyasi partiyaların böyük qismini ətrafında birləşdirmiş, müəyyən ümidlər yaratmışdı.**



AXH-nin də məhv olması bir məsələni yenidən aktuallaşdırıb: İndiyə qədər bu tipli yaradılan müxalif qurumların hər biri qısa müddətdə ya parçalanıb, ya da tarix olub. Buna səbəb nədir?

Bir çox ekspertlər prosesin qarşısını almaq üçün müxtəlif versiyalar səsləndirir. Düşərgənin yenilənməli (update) olduğunun vacibliyindən söz açılır. Onlar bildirir ki, uzun müddət müxalifətdə təmsil olunmuş liderlərin aralarında intriqaların bu günə qədər də davam etməsi birliklərin fəaliyyətinə birbaşa yansıyır. Buna görə də düşərgənin tamamən yenilənməsi təklifi verilir.

AMİP katibi Əli Orucov "Yeni Müsavat"a bu barədə maraqlı açıqlamalar verib. O qeyd edib ki, müxalifətin müxtəlif formatlarda birləşməsi və ayrılması normaldır: "Heç bir format ideal və əbədi deyil. Ona görə də bu vaxtadək saysız-hesabsız birliklər, ittifaqlar və bloklar yaradılıb. Adətən müxalifət düşərgəsinin birləşməsi seçki dönəmlərinə təsadüf edir. Lakin bu ittifaqlar məhdud müddət üçün nəzərdə tutulduğundan uzun müddət yaşaya bilməyib. Son dövrlər cəmiyyətdə müşahidə olunan aktivlik müxalifəti də hərəkətə gətirdi və bir neçə görüşlərini, tədbirlərini birgə keçirə bildi. Ardınca Azərbaycan Xalq Hərəkatı adlı bir qurum da yaradıldı. Lakin təəssüflər olsun ki, bu qurumun bünövrəsi düzgün qoyulmadı. Bir-birinə zidd qüvvələr, bir-birinə nifrət edən şəxslər bura qəbul edildi. Nəticəsi də bəllidir. Mən AXH-ni təftiş etmək istəmirəm, bu etik də olmazdı. Çünki ilk gündən iştirak etmədiyimiz bir qurumun daxilində gedən prosesləri müzakirə etməyi məqbul saymıram. Müxalifətin birliklərlə bağlı strategiyası da, baxışları da uzun illərdən bəri dəyişməz qaldı. Birliklər yaradılarkən partiyadaxili müzakirələrdən, buraxılan səhvlərin analizindən keçmədən bəzən tələm-tələsik yaradılır. Burada partiyaların ideoloji baxışları, cəmiyyətdəki gücü və nüfuzu, hətta siyasi liderlərin keyfiyyətləri nəzərə alınmır. İllərlə bir-birinə qənim kəsilən, bir-birini məhv etməyə çalışanlar bir günün içində müttəfiqə çevrilirlər. Yaxud da "bir özü, bir papkası" olan partiya sədri elə iddialara düşür ki, sanki ölkənin taleyi ondan asılıdır və s. Müxalif birliklərin uzun çəkməməsinin, yaxud birləşə bilməməsinin başlıca səbəbi ölkədə normal siyasi sistemin olmaması və seçkilərin demokratiyanın vacib elementlərindən biri olaraq nəzərə alınmamasıdır. Dünyanın heç bir yerində müxalifətin hamısı bir yerdə olmayıb, ola da bilməz. Çünki ideoloji və təmayül fərqlilikləri və maraqlar var. Lakin ümumi maraqlar naminə yaxın partiyalar seçki dönəmində birləşib seçkilərə birgə gedirlər və qazandıqları təqdirdə də koalisiya yaradırlar".

**Ə.Orucov hakimiyyətin burada olan roluna da toxundu:** "Doğrudur, müxalifət daxilində ciddi problemlər və yanlışlıqlar mövcuddur. Bunlar xırda detallardır. Hakimiyyət də çalışır ki, daxili ziddiyyətlər, çəkişmələr davam etsin. Və siyasi müxalifəti özündən tam asılı vəziyyətə salsın. Bəzilərinə maliyyə verir, bəzilərinə mandat, bəzilərinə digər imtiyazlar, orbitindən kənarda olanları isə cəzalandırır, sıxışdırır. Bir neçə partiyanı çıxmaqla əksər təşkilatlar cəmiyyətin sifarişi ilə deyil, hakimiyyətin bilavasitə istəyi ilə yaradılıb. Onların da bəzilərinin "siyasi meydanda qalmaları" iqtidarın verdiyi süni nəfəsdən asılıdır. Digər tərəfdən, bu gün siyasi arenada olan liderlər siyasi meydanı tərk edib, yerini gənc və iddialı liderlərə verməlidirlər. Tutaq ki, öz prezidentinə bir şillə ilə həbs orderi verən İxtiyar Şirinlə, dövlət çevrilişində ittiham olunan Rəhim Qazıyevlə, "mən digər funksionerləri üzə çıxartmıram onları işdən çıxardarlar" deyib, özündən başqa partiyasında ikinci bir şəxs olmayan, ancaq gecə-gündüz inqilabdan danışanlarla, mənəvi əxlaqı aşınmaya məruz qalmış birisi ilə yüz belə formatı yarat, nə dəyişəcək ki? Təbii ki, heç nə. Maraqlıdır ki, iqtidar da indiki simaları qoruyub saxlayır ki, alternativlər meydana girə bilməsin. Xalq, cəmiyyət də siyasi vitrində eyni simaları gördükcə siyasi proseslərdən uzaqlaşır. Müxalifətin daxilindəki monopoliyanı təəssüflər olsun ki, hələ də aradan qaldırmaq mümkün olmayıb. Öz dövrü və missiyası başa çatan siyasilər gənclərə dəstək olmalı, onların üzə çıxmasına şərait yaratmalıdırlar. Özünütənqid müsbət haldır. İqtidarın dəyişməsini istəyən müxalifət düşərgəsində partiya sədrlərinin və funksionerlərinin əksəriyyəti 20-25 ildir postunu qoruyub saxlayıb".

**Həmsöhbətimiz dedi ki, gənclərimizin siyasətə getdikcə marağı artmaqdadır:** "Yetər ki, onlara meydan və imkanlar verilsin".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 186 (7356) 10 sentyabr 2019

# Siyasi məhbus oyunu - yeni siyahılara sərt reaksiyalar gəldi

## Elçin Mirzəbəyli: “Bir çoxları “siyasi məhbus" məsələsi üzərindən özünə biznes qurub..."

**Siyasi məhbuslarla bağlı hazırlanan son iki siyahı ciddi müzakirələrə səbəb olub. Məlumat üçün bildirək ki, “Azərbaycan Siyasi Məhbuslara Azadlıq” İttifaqı 117, Vahid Siyasi Məhbus Siyahısının hazırlanması üzrə İşçi Qrup 119 siyasi məhbusun olduğu barədə siyahı yayıb.**

Bunun ardınca hüquq müdafiəçilərindən və iqtidar təmsilçilərindən sərt reaksiyalar gəlməyə başlayıb. Xüsusilə siyahının 5-7 sentyabr tarixlərində Azərbaycanda səfərdə olan AŞ PA-nın siyasi məhbuslar üzrə məruzəçisi Torhildur Sunna Evarsdottirorun gəlişi günlərində təsadüf etməsi ən müxtəlif fikirlərin formalaşmasına səbəb olub. Belə fikirlər var ki, siyahı hazırlayan qurumların əsas məqsədləri xanım məruzəçiyə pas ötürmək, bununla ölkə iqtidarına qarşı təzyiqləri artırmaq olub. Bu ilin martındakı əfv sərəncamında 50-dən çox siyasi məhbusun azad olunmasından sonra belə aşağı-yuxarı siyasi məhbusların eyni sayda qaldığını iddia etməyin özünün çox absurd olduğu bildirilir.

**BAXCP sədrinin müavini, politoloq Elçin Mirzəbəyli siyahıların hazırlanmasının arxasında duran məqsədlərdən söz açdı:** “Düşünürəm ki, sualınızı cavablandırmazdan öncə "siyasi məhbus" anlayışının özünə aydınlıq gətirmək lazımdır. Öncə qeyd edim ki, beynəlxalq hüquqi sənəd sayılan heç bir beynəlxalq konvensiyada “siyasi məhbus” anlayışı yoxdur. Hətta insan hüquqları ilə bağlı əsas istinad mənbəyi olan “Vətəndaş və siyasi hüquqlar haqqında” Pakt və “İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında” Konvensiyanın özündə də “siyasi məhbus” anlayışı ilə bağlı konkret termin və müəyyənləşdirmələr yoxdur. Yalnız Beynəlxalq Amnistiya kimi qlobal güclərin əlində yumşaq güc aləti funksiyasını yerinə yetirən təşkilatlar “siyasi məhbus” anlayışını öz maraqlarına və strateji məqsədlərinə uyğun şəkildə tövsif edirlər. Avropa Şurası Parlament Assambleyasının bununla bağlı 2012-ci ildə qəbul etdiyi 1900 saylı qətnaməsi var. Qətnamədə qeyd olunur ki, bir sıra təşkilatlar, siyasətçilər və vətəndaş cəmiyyəti təmsilçiləri tərəfindən geniş istifadə olunan belə terminlərlə bağlı aydın və dəqiq müəyyənləşdirmə aparılmalıdır. 1900 saylı qətnamə tövsiyə xarakterlidir və “siyasi məhbus” anlayışının dəqiq sərhədlərinin müəyyənləşdirilməsi ilə bağlı normativ hüquqi aktların qəbul edilməsi quruma üzv olan ölkələrin öhdəsinə buraxılır. Nəinki Azərbaycanın, hətta Avropa məkanında daxil olan ölkələrin qanunvericilik akrlarında belə dəqiq sərhədləri müəyyənləşdirməmiş bir siyasi terminin hüquqi anlayış kimi ifadə olunmasının əleyhinəyəm. O ki qaldı həbslərində siyasi motivlərin olduğu iddia edilən şəxslərlə bağlı məsələyə, belə siyahıların kimlərin mətbəxində hazırlandığı bəllidir. Və belə “siyahıların” məhz indi gündəmə gəlməsinin əsas səbəblərindən biri də dövlətimizə qarşı genişlənməkdə olan təbliğat kampaniyasının arxasında dayanan daxili və xarici düşmənlərimiz üçün bəhanələr yaratmaqdan ibarətdir. Bu texnologiyadan Azərbaycana qarşı artıq uzun müddətdir ki, istifadə edilir. Prosesin arxasında korporativ daxili və xarici maraqlar da var, şübhəsiz. Bir çoxları “siyasi məhbus” məsələsi üzərindən özünə biznes qurub. Şəxsiyyət əleyhinə ağır cinayət törətmiş, ölkənin konstitusiya quruluşunu dəyişməyə çağırışlar edən, dövlətə silah qaldıran şəxslərin adlarının belə siyahılara salınması da bunu sübuta yetirir".


Elçin Mirzəbəyli

**Politoloq bu prosesin davamlı olacağını düşünür:** “Sizi əmin edirəm ki, əgər Azərbaycanda adları belə siyahılarda yer alan şəxslərin hamısı əfv, amnistiya, yaxud məhkəmə qərarlarından sonra azadlığa buraxılsalar belə, bir neçə aydan sonra biz təxminən eyni sayda insanı əhatə edən siyahıların ortaya çıxmasının şahidi olacağıq. Necə ki, oluruq. Sonuncu əfvdən öncə ölkəmizdə 100-dən artıq "siyasi məhbus"un olduğu iddia edilirdi. Belə siyahılarda adları yer alan 50-dən çox insan əfv olundu. Amma görürsünüz, say yenə 100-dən aşağı düşmür. Sanki bunlara xüsusi tapşırıq verilib ki, “şkalanı” 100-ün üzərində saxlasınlar. Əslində məqsədlərdən biri də Azərbaycan-Avropa İttifaq münasibətlərindəki inkişafa mane olmaqdan ibarətdir. Yəni “siyasi məhbus” iddiaları ilə bağlı məsələlər barədə fikir yürüdəndə təkcə bir qütbün maraqlarını nəzərə almaq doğru olmazdı. Bəzən bizim Qərb siyasətçisi, yaxud təşkilatı kimi qəbul etdiyimiz şəxslərin, yaxud təşkilatların arxasında tamamilə əks qütbün nümayəndələri dayanırlar. Həmin dairələr Avropada belə təşkilatlara və siyasətçilərə böyük vəsaitlər xərcləyirlər. Məsələ göründüyü qədər sadə deyil. Amma belə təxribatların Azərbaycan-Avropa İttifaqı münasibətlərinə xələl gətirəcəyini düşünmürəm. Ortalıqda daha böyük strateji maraqlar var".

**❑ Cavanşir ABBASLI, “Yeni Müsavat”**

# “Lazım gələrsə, Əli Kərimli ilə duelə də çıxacağam” - küsülü siyasətçilər

## Siyasətçilər hesab edirlər ki, küsülülük anlayışı siyasətdən uzaqdır, ancaq özlərinin küsülü olduqları şəxslər də var...


Hafiz Hacıyev


Əli Kərimli

**Tez-tez şou-biznesdə müğənnilərin, sənət adamlarının bir-birilərindən küsülü olmaları ilə bağlı xəbərlər yayılır. Məsələn, son yayılan məlumatlara görə, müğənni Röya Ayxan 21 nəfərlə küsülüdür. Azərbaycanın siyasi cameyəsində də bir-birindən küsən, bir-biriləri ilə mübahisə edən siyasətçilərə rast gəlirik. Xüsusilə də müxalifət düşərgəsində bu cür hallarla bağlı daha çox məlumat yayılır. Müxalifət nümayəndələrindən bir neçəsindən soruşduq. Onlar kiminlə küsülüdür? Siyasətçiyə küsülülük anlayışı nə dərəcədə uyğundur?**

“Yeni Müsavat”a danışan **AĞ Partiyanın lideri Tural Abbaslı** bildirdi ki, dünyada siyasət bir peşədir və peşədə küskünlük yolverilməzdir:

“Küskünlük şəxsi münasibətlər zəminində formalaşan bir ələqədir. Bu, sadəcə olaraq, emosional bir prosesdir. Ancaq düşünürəm ki, işlə, peşə ilə bağlı küskünlük qeyri-peşəkar yanaşmadır. Siyasət də deyərdim ki, ən məsuliyyətli peşələrdən biridir. Belə olduğu halda isə küskünlüklərin olmaması lazımdır. Ancaq təəssüf ki, Azərbaycanda nəinki yeni, hətta illərdir ki, küskünlüklərini davam etdirənlər var. Bu gün siyasətdə 20-30 ildir küsülü olanlar var. Hansı ki, bu küskünlüklər nəinki öz şəxslərinə, hətta ümumi proseslərə ziyan verir. Dövlətçilik, müxalifətçilik baxımından bu cür küsülü olmalar böyük zərərlər gətirir. Mənim küsülü olduğum kimsə yoxdur. Çünki siyasət peşədirsə, burada peşə, iş kimi yanaşmaq lazımdır. Şəxsi münasibətlərimdə isə dostlarımla küsə, barışa bilərəm. Siyasətdə isə bu cür hal yoxdur. Lakin məndən küsən, inciyən siyasi baxımdan küskünlük saxlayan varsa, bu da onların biləcəyi bir işdir”.

**ReAL Partiyasının funksioneri Natiq Cəfərli mövzu ilə bağlı “Yeni Müsavat”a söyləyib ki, şəxsi münasibətlərdə problemlər olur:**

“İstər siyasətçilər olsun, istərsə də adi vətəndaşlar. Şəxsi münasibətlərdə problemlərin yaşanması mümkündür. Bunu inkar etmək də doğru olmazdı. Ancaq şəxsi inciklik və şəxsi münasibətlər hesab edirəm ki, siyasi polemikaya təsir etməli deyil. Bu cür hallar hesab edirəm ki, qarayaxma kampaniyasına çevrilməməlidir. Əgər siyasi mübarizədə ideoloji fikir ayrılıqları varsa, bunun şəxsi zəmində deyil, ideoloji zəmində təqdim olunmasına da ehtiyac var. Təbii ki, bir-biriləri ilə şəxsi münasibətlərində problemlər olan, son 20-25 ildə belə problemlərin dəfələrlə üzə çıxdığını siyasətçilər arasında görmüşük. Bütün bunlar şəxsi münasibətlər zəminində olub. Nə siyasi proseslərə, nə ideoloji baxış fərqinə, nə də məsələlərin təhlilinə görə münasibətlərin gərginləşdiyini görməmişik. Kiminsə kimdənsə inciklikləri siyasi səhnəyə gətirmək istəyirlər. Bu, yolverilməz haldır və doğru deyil. Ancaq ümumilikdə hər kəs insandır və şəxsi zəmində də problemlərin yaşanması normal haldır”.

Tez-tez müxtəlif məsələlərlə bağlı qalmaqallara çəkilən deputat Fazil Mustafa müsahibələrinin birində söyləyib ki, hazırda siyasətdə küsülü olduğu kimsə yoxdur.

Onu da qeyd edək ki, siyasətdə Sosial-Demokrat Partiyasının (ASDP) sədri Araz Əlizadə ilə onun qardaşı və vaxtilə partiya silahdaşı olmuş politoloq Zərdüşt Əlizadənin illərdir küsülü olması ilə bağlı çoxsaylı xəbərlər yayılıb. Tərəflər isə bu xəbərləri təsdiq və ya inkar etməyiblər...

Bundan başqa, ADP sədri Sərdar Cəlaloğlu və qardaşı, hazırda mühacirətdə olan qardaşı Qurban Məmmədovun küsülü olduğu bildirilir...

**Adı tez-tez qalmaqallarda hallanan siyasətçi Hafiz Hacıyevin isə konkret olaraq danışmadığı şəxslər var. “Yeni Müsavat”a açıqlamasında H. Hacıyev bildirib ki, onları bir ömür bağışlaya bilməz:**

“Azərbaycanın siyasi partiyalarının əksəriyyətində "salam-sağ ol"um olduğu adamlar var. Onlarla görüşüb, normal qaydada söhbət edirəm. Düzdür, məni bəyənməyənlər də var. Onların içərisində mənə qarşı kinli olanları da mövcuddur. Bəllidir ki, siyasətdə Hafiz Hacıyevə qarşı kin gəzdirən əsas 3 nəfər var ki, onlar da Kərimli Əli, Həsənli Cəmil və Hacılı Arifdir. Onların da hamısının üzünə həqiqəti dediyimə görə mənə qarşı kin saxlayırlar. Kərimov Əli kimi adamlarla həmişə düşmən olmuşam, axıra qədər də bu, belə olacaq. Lap lazım gələrsə, duelə çıxacağam. Bu adamlarla mənim ulduzlarım barışmaz. Digərləri ilə müzakirələrim olub. Siyasətçinin küsməsinə çox pis baxıram. Çünki siyasətçi arvad deyil ki, hər şeydən küssün. Siyasətçi hər zaman mübarizə aparmalıdır. Siyasətçilər bir-birilərini söyər də, döyər də. Ancaq siyasi meydanda dövlətin maraqlarını qorumaq gərəkəndə hamı bir yerdə olar. Ona görə də siyasətçilərin bir-biriləri ilə küsülü olmalarını normal qarşılamıram. Düşmən olmaq başqa şeydir. Mənim özüm də yuxarıda adlarını çəkdiyim şəxslərlə düşmən kimiyəm və bir yerdə ola bilmərəm. Bu, küsülülük deyil".

**❑ Əli RAİS, “Yeni Müsavat”**



# Siyasi qısqanclığa ehtiyac yoxdur

Zamin HACI
zaminhaci@gmail.com

"Gördükdə mən eyləyən vəfayı,
Bildikdə sən eyləyən cəfayı,
Aya kimə bivəfa deyərlər?
Kimin işinə xəta deyərlər?"
*(Füzuli, "Leyli və Məcnun")*

**YAP-çı deputat, məşhur "91-lər"dən biri olmuş Eldar İbrahimovun "Müxalifəti atıb biz tərəfə keçənlərə etibar yoxdur, onlar öz düşmən xislətini haçansa üzə çıxaracaqlar" məzmunlu açıqlaması elə iqtidarın özü tərəfindən haqlı olaraq dərhal vuruldu. Doğrudan da, camaata bir tikə əppək verib müxalifət yolundan döndərmək imkanı varsa, belə düşmənçilik söhbətləri nəyə gərəkdir? Şərait yaradırsan, lizinqlə kombayn verirsən, torpağına gübrə tökürsən, müxalifətçi də daha "Məhsul" stadionunda acqarına gərnəşmək istəmir, gedir kənddə məhsul yığır. Onsuz Azərbaycan aqrar ölkədir, bizdən dünyaya başqa nəsə çıxacağını gözləmək mənasızdır (Eldar müəllim özü MM-də aqrar siyasət komitəsinin sədridir). İqtidar da bunu çox dəqiq və vaxtında başa düşüb, kənd təsərrüfatında müəyyən azadlıqlar yaradılır. Misal üçün, mənim bir tələbə yoldaşım var idi, Narxozda 90-cı illərdə eyni qrupda oxumuşuq, çox savadlıydı, yanılmıramsa əlaçı olmuşdu, öz gücünə təhsil alan 5-6 nəfərdən biriydi (bizim qrupdakı 27-28 nəfərdən minimum 20-si ali məktəbə pulla girmişdi). Uzun sözün qısası, bu yaxında kənd təsərrüfatına aid bir tədbirdən fotoreportaj gördüm, baxdım ordakı "qəstumlu" yoldaşlardan biri mənə yaman tanış gəlir. Diqqətlə oxudum, yanılmamışdım, bu adam mənim həmin tələbə yoldaşım idi. Hazırda onu aqrar sektora baxan idarədə yetərincə lazımlı vəzifəyə qoyublar. Açığı, iqtidarın bu kadr siyasəti şəxsən xoşuma gəldi. Əlbəttə, ümid edirəm və inanıram ki, tələbə yoldaşım o zamanlardakı ədalət hissindən və biliyindən uzaq düşməmişdir. Adını isə narahat eləməmək üçün çəkmədim.**

Qaldı iqtidarı söyənlərə pul buraxmaq, müxalifətin etibarsızlığı, keçmiş nazirlər niyə susublar kimi temaların son günlər aktuallaşması, məncə, burada düşünülmüş siyasət vardır. Azərbaycan hakimiyyətinin söyüş müxalifətinin gündəmdə qalmasında hesab edirəm böyük maraqları olmalıdır. Nəyə görə? Sadə səbəbdən: belə müxalifətə baxan istənilən ağlı başında şəxs iqtidara min dəfə şükür eləməlidir. O məşhur dastan əhvalatındakı kimi, tapşırıq belə qoyulubdur. "Başqaları bir dəfə söyəndə, sən min dəfə söy". Qoy mərə kafər Qazan xanın adını ləkələmək arzusuna çatmasın.

Ancaq Eldar müəllimin nigarançılığı da başa düşüləndir. Gələn il parlament seçkiləri gözlənilir, deputatxanada yerlər isə tərslikdən məhduddur. Bəzi deputatlar nə qədər dedilər gəlin bunu artırıb 1000-1500 deputat eləyək, alınmadı. Yuxarıdakıların da buxalteriyası var axı. Dəftər-kitaba vururlar, görürlər 1000 dənə deputatı saxlamaq çətin olar. Hələ Hadı müəllim bir nəfərdir, danışdıqlarını, səpələdiyi temaları ilboyu toplamaqda nə qədər krizislər yaranır, gör indi say çoxalsa nə olar. Əhalinin hər min nəfərinə düşən Hadı müəllim əmsalı bizdə yetərincə yüksək səviyyədədir. Yəni bu işi "İman, bala, cavan olmusan, səhv eləmisən, silahı at, gəl keç biz tərəfə" deməklə həll eləmək olmur, İmana imanlı vəzifə də qayırmalısan.

Sözümün canı odur ki, satın alınan müxalifətçilər parlamentdə yerləri doldursalar, birdən Eldar müəllim qıraqda qalsa nə alınar? Çox pis olar. Yuxarıda yazdım, "91" söhbəti var. İndiki uşaqlar bilməz, 90-cı illərdə bu "91"lər teması yetərincə aktiv tema idi. Rəhmətlik şair Mətləb Nağı bu temada yaxşı şeir də yazmışdı: "Nəsillikcə sap olmadı bizdən baltaya, Tarix təkrar zülm edirmiş qapazaltıya: Babam o vaxt düşənmədi "26"ya, Mən də indi öz babamdan geri olmadım, Heyf, heyf, "Doxsanbir"in biri olmadım".

Bir də iqtidar gərək söyən müxalifətçilərin üstünə çox getməsin. Yenə bunlar söyüb doyublar, təzə müxalifətçi gəlsə bəlkə daha pis söydü?

# Kremldən İrəvana yeni sürprizlər - "cücələr" oktyabrda sayılacaq

## Rusiya Paşinyanın qarşıdakı Amerika səfərinin önəmini sıfırlayır; **Ermənistanın maliyyə naziri:** "Vəziyyət fəlakətlidir..."

**Ermənistanın baş naziri Nikol Paşinyan Qərbin, öncəliklə də ABŞ-ın "könlünü" almağın yollarını arayır. Onun gələn həftə Birləşmiş Ştatlara nəzərdə tutulan səfərində əsas hədəf əslində elə budur: inqilab sonrası Ermənistanın Rusiyaya deyil, Qərbə rəğbətinin olduğuna, Rusiya ilə Qərb arasında balansı gözlədiyinə "Sem dayı"nı inandırmaq. Alınacaqmı?**

Çətin. Ona görə ki, Nikol Paşinyan hakimiyyətdə olduğu ötən 1 il 4 ayda Ermənistanı, vəd elədiyi kimi, Rusiya orbitindən uzaqlaşdırmağa nəinki cəhd etməyib, əksinə, moskvayönlü xarici siyasət kursunu daha da gücləndirib, hökumətin yeni proqramında Rusiya prioritet dövlət elan edilib, üstəlik, Kremlin diqtəsi ilə Suriyaya hərbi-humanitar missiya göndərməklə Vaşinqtonun kəskin reaksiyasına səbəb olub.

*****

Ən maraqlısı da odur ki, bu qəbildən siyasi reveranslara rəğmən, Paşinyan Moskvanın, konkret olaraq, prezident Vladimir Putinin hüsn-rəğbətini qazana bilməyib. Putin hələ də ona, yumşaq desək, ürək qızdırmır. Bunu eks-prezident, Paşinyanın qatı düşmənlərindən olan sabiq prezident, hazırda 1 mart 2008-ci il hadisələrinə görə həbsdə yatan Robert Köçəryana az öncə Putinin məxsusi ad günü təbriki göndərməsi bir daha sübut edir.

Bu, Paşinyanın iqtidarda olduğu müddətdə Kreml başçısının Köçəryana ünvanladığı ikinci təbrik idi. Halbuki Putin Nikol Paşinyanı baş nazir seçilməsi münasibətilə təbrik etməyi özünə rəva görməmişdi.

Yeri gəlmişkən, iki gün sonra - sentyabrın 12-də R.Köçəryanın ikinci dəfə həbsdən azad olunması gözlənilir. Hər halda, Ermənistanın məhkəmə-hüquq sistemində kök salmış rusiyayönlülər indi heç vaxt olmadığı qədər öz hədəflərinə yaxındır. Təxminən 1 ay sonra isə Putinin Ermənistana səfəri gözlənilir. Bəzi məlumatlara görə, Kremlin şərtlərindən biri səfərədək Köçəryanın azad edilməsi ilə bağlıdır. Böyük ehtimalla, o zaman Rusiya lideri İrəvanda Köçəryanla da görüşəcək. Bununla da Putin Paşinyana növbəti sürprizini edəcək.

*****

Bu arada Ermənistanın keçmiş müdafiə naziri, silahlı qüvvələrin keçmiş Baş Qərargah rəisi, adı 2008-ci il 1 mart hadisələrinin günahkarları siyahısında olan general-polkovnik Mikael Arutyunyanın ismi Rusiyada axtarılan şəxslər siyahısından çıxarılıb. Məlumatı "İnterfaks"a məlumatlı mənbə deyib (Virtualaz.org ). Arutyunyan keçən il MDB çərçivəsində dövlətlərarası axtarışa verilmişdi.

"Arutyunyan barədə 2008-ci il 1 mart hadisələri işi üzrə təqdim edilmiş materialların öyrənilməsindən sonra onun adı Rusiya ərazisində axtarışda olan şəxslər siyahısından çıxarılıb", - mənbə deyib. Beləliklə, Arutyunyanı Rusiyada daha heç bir təhlükə gözləmir. Bundan əvvəl "İnterfaks"ı məlumatlandıran digər mənbə demişdi ki, Arutyunyanın Ermənistana verilməsi mümkün deyil. Çünki onun 2002-ci ildən Rusiya pasportu var.

Ermənistanın polis rəisi Valeri Osipyanın bildirdiyinə görə, Arutyunyan, həmçinin keçmiş prezident Serj Sərkisyanın qardaşı Levon və qohumu Ani Sərkisyan iyul ayından etibarən dövlətlərarası axtarışa verilib. Mikael Arutyunyanın Moskvada olduğu bəllidir. Bəzi məlumatlara görə, Sərkisyanın qohumu və qardaşı da Rusiyadadır.

"Yeni Müsavat" xatırladır ki, keçən ay Rusiya Baş Prokurorluğu Ermənistanda kriminal oliqarxiyanın nümayəndələrindən olan və Rusiyaya qaçıb sığınan Miqran Poqosyanın İrəvana təhvil verilməsi barədə Ermənistan Baş Prokurorluğunun vəsatətini rədd etmişdi.

Miqran Poqosyan "Panama ofşorları" qalmaqalından sonra diqqət mərkəzinə gəlmişdi. O zaman Poqosyan Ədliyyə Nazirliyinin Məhkəmə aktlarının məcburi icrası xidmətinə başçılıq edirdi. Bu da maraqlıdır ki, Rusiya Baş Prokurorluğunun imtina qərarı Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevin İrəvan səfəri başa çatandan dərhal sonra açıqlanmışdı...

*****

Belə görünür ki, Moskvanın İrəvana əsas sürprizləri hələ qabaqdadır, Putin "cücələr"i oktyabrda sayacaq. Məsələ həm də ondadır ki, Ermənistan hökuməti ilə Rusiya hökuməti arasında işğalçı ölkəyə satılan təbii qazın qiyməti ilə bağlı məsələ açıq qalır. Aydındır ki, qışın astanasında Paşinyan hökuməti Putini qəzəbləndirəcək manevrlərdən çəkinməyə çalışacaq. Ən önəmlisi, mavi yanacağın qəfil bahalaşması zəruri ərzaq məhsullarının bahalaşması demək olardı. Bunlar öz yerində. "Xalq baş naziri"nin Ermənistanın Rusiyadan güclü hərbi-siyasi və energetik asılılığı fonunda ABŞ-la münasibətləri necə yaxşılaşdıracağı çox maraqlıdır.

Blokadada olan Ermənistanın iqtisadiyyatında isə böhranlı durum davam edir. Yeni hökumətin bu yöndə Qərbdə maliyyə axtarışları artıq iflas olub. Ona görə ki, Qərb Rusiyanın satelliti və regionda yeganə forpostu olan vassal ölkəyə, "iki stul"da oturan Paşinyana böyük sərmayə vermək istəmir.



Söz düşmüşkən, ölkənin maliyyə naziri Tiqran Xaçaturyan xaricdə fəaliyyət göstərən erməni diplomatları ilə İrəvan görüşü zamanı bunu qəmli şəkildə etiraf edib. "Yeni Müsavat"ın "Qraparak" nəşrinə istinadən verdiyi məlumata görə, nazir iqtisadi durumun fəlakətli səviyyədə olduğunu söyləyib. O, diplomatları xaricdə ölkə üçün maliyyə axtarışı yönündə fəal olmağa səsləyib.

"Adambaşına düşən gəlir nöqteyi-nəzərindən biz indi lider səviyyədə olan dövlətlərdən təxminən 15 dəfə geriyik. Bizim istehsalımız Avropanın orta səviyyəli istənilən ölkəsindən 8 dəfə, Avrasiya İqtisadi Birliyinin lider ölkələrindən isə 2 dəfə aşağıdır. İqtisadiyyatın praktik olaraq, bütün sahələrində vəziyyət eynidir", - deyə Xaçatryan qeyd edib.

Nazir əsas səbəb barədə danışmasa da, onu hamı yaxşı bilir - həlli uzanan Qarabağ məsələsi, bundan doğan blokada rejimi. Odur ki, Azərbaycan atalar məsələsində deyildiyi kimi, "Özü yıxılan ağlamaz..."

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

# YAP icra katibinin müavininin açıqlaması gündəmi silkələdi - Siyavuş Novruzov niyə belə dedi?

## Həmkarları Novruzovu müdafiə etdi; **Elman Məmmədov:** “Mən Siyavuş müəllimlə tamamilə razıyam, onun mövqeyini müdafiə edirəm”

**YAP icra katibinin müavini Siyavuş Novruzovun “Yeni Müsavat”a eks-nazirlər barədə verdiyi sensasiyalı açıqlamasına bəzi sabiq nazirlərdən reaksiya gəlib. Belə ki, sabiq təhsil naziri Misir Mərdanov demokrat.az-a açıqlamasında deyib ki, Siyavuş Novruzovun səsləndirdiyi ittihamlar ona aid deyil. “Siyavuş Novruzovun dediyi o sözlər qətiyyən mənə aid deyil. Mənim hər zaman mövqeyim bir olub, sözümü demişəm və heç nədən qaçmamışam. Bu gün də eyni mövqeydəyəm və lazım gələndə sözümü deyirəm”, - eks-nazir bildirib. M.Mərdanov keçmiş nazirlər arasında mühacirlərə maliyyə dəstəyi verənlərin olmasını da istisna etməyib.**

**Sabiq nəqliyyat naziri Ziya Məmmədov isə səsləndirilən ittihamlarla bağlı sfera.az-ın sualına cavab verib. Eks-nazir qısa açıqlama verməklə kifayətlənərək, səsləndirilən ittihamların ona aid olmadığını bildirib:** “Təxribatla məşğul olmayın. Siyavuş Novruzov mənim dostumdur”.

İstisnalar olsa da, əksər sabiq nazirlər hələ də susurlar. Onların bəziləri mətbuatın israrlı telefon zənglərinə də cavab vermir. Ancaq S.Novruzov bəyan edib ki, mövqe bildirməsələr, davamı onlar üçün yaxşı olmayacaq. YAP funksionerinin qəfildən belə bir açıqlama ilə çıxış etməsi, üstəlik, masanın üstündə səsləndirdiyi ittihamları əsaslandırmaq üçün faktların olduğunu bildirməsi ilgincdir. YAP rəhbərliyinə daxil olan komitə sədrinin belə həssas məsələni əsassız yerə ictimailəşdirmədiyinə şübhə edənlər azdır. Hətta hesab olunur ki, bu məsələ partiya rəhbərliyi ilə də müzakirə olunduqdan sonra mətbuata çıxarılıb. Bəzi mənbələr bildirir ki, böyük sərvətlər toplayan və vəzifədən çıxarıldıqdan sonra gözə görünməyən bəzi sabiq məmurların potensial təhlükə olduğunu hakimiyyətdə də yaxşı bilirlər. Onların bəzilərinin hətta ailə-uşağını da ölkədən çıxardığı iddia olunur. Təsəvvür edin, hakimiyyətdə təmsil olunduğu zaman S.Novruzov demişkən, milyardlara sahib olan bu şəxslər indi uzaqlara çəkilib, “söyüş müxalifəti” ilə üz-üzə qalan mövcud iqtidarı isə bir qrup fəal, hakimiyyətin sadiq müdafiəçiləri olan dövlət xadimləri, yaxud media mənsubları müdafiə edir.

**YAP-çı deputat Tahir Rzayev həmkarı Siyavuş Novruzovun vəzifədən gedən nazir və məmurlarla bağlı son açıqlamasına dəstək çıxıb. “Etikxeber”ə açıqlamasında bir çox hallarda məhz hakim partiyada təmsil olunmuş həmin sabiq nazirlərə, vaxtilə vəzifə tutmuş o şəxslərə görə təhqir olunduqlarını bildirib.** “Biz də vətəndaşıq, biz də insanıq. Biz niyə təhqir olunmalıyıq, niyə söyülməliyik? **Bir çox hallarda da məhz onlara görə!!! Onların özlərinin ünvanına nə qədər sözlər deyirlər” - deyən deputat vurğulayıb ki, onlar özləri heç olmasa özlərini müdafiə etsinlər.** “Düzünü deyim ki, mənim əlimdə hakim partiya üzvü olan sabiq nazirlərlə bağlı hansısa faktlar yoxdur. Amma Siyavuş müəllimin sözünə, dediklərinin əksəriyyətinə haqq qazandırıram. Çünki bu adamlar-sabiq nazirlər uzun müddət bu dövlətdə, bu hakimiyyətdə, hökumətdə təmsil olunublar, bunlar insanlar arasında olublar. Bunların vəzifədən çıxandan sonra birdən-birə istər ictimai həyatdan, ictimai səhnədən çəkilmələri və gedib oturub susqunluq göstərmələrini düzgün qəbul eləmirəm. Nə olar nazir vəzifəsindən çıxanda, bir vətəndaş kimi dünyada baş verən hadisələrə, ölkədə baş verən proseslərə öz münasibətlərin bildirməlidirlər” - deyə YAP-çı deputat sözlərinə əlavə edib.


Hadi Rəcəbli


Fikrət Yusifov


Elman Məmmədov

**Milli Məclisin (MM) Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli həmkarı Siyavuş Novruzovun ittihamlarına münasibətini bildirərkən deyib ki, insan ona çörək verən, onu vəzifəyə irəli çəkən, tanıdan şəxsə, hakimiyyətə daim sadiq və sədaqətli olmalıdır.** “Hamımız ulu öndər Heydər Əliyevin, onun layiqli davamçısı cənab prezident İlham Əliyevin çörəyini yeyirik, onların sayəsində vəzifələrə irəli çəkilmişik, tanınmışıq, nüfuz, hörmət sahibi olmuşuq. İndi necə ola bilər ki, biz onlara, dövlətimizə sadiq və sədaqətli olmayaq? Vəzifədən getdinsə, bir qədər kənarda qaldınsa, nə bilim, pişik asqırdısa, o zaman sənə çörək verənə, səni tanıdana qarşı çıxacaqsan, ona arxa çevirəcəksən? Mən bunu heç cür qəbul etmirəm və ömrüm boyu da etmərəm. İstər vəzifədə ol, istərsə də olma, hər zaman sədaqətli və sadiq olacaqsan. İnsan çörəyi, yaxşılığı heç zaman unutmaz, xüsusilə də vəzifədən gedəndən sonra. Mənim düşüncəm, həyat fəlsəfəm bundan ibatətdir...”-deyə, H. Rəcəbli sonda sözlərinə əlavə edib.

**“Çox sağ olsun Siyavuş Novruzovu ki, bu məsələni gec də olsa gündəmə gətirdi”. Bunu sabiq maliyyə naziri Fikrət Yusifov teleqraf.com-a bildirib. O qeyd edib ki, cəmiyyətin gözü tərəzidir, kimin nə ilə nəfəs aldığını çox yaxşı bilir:** “Vaxtilə dövlətin milyardlarla manat vəsaitini talayanların kimliyini də hər kəs çox gözəl bilir. Mən bu adamların hakimiyyətə maliyyə müxalifi olduqlarını dəfələrlə yazmışam və demişəm. Burada bütün baş verənlər sadə məntiqə söykənir. Yəni yeni nə isə kəşf etməyə ehtiyac qalmır. Bir korrupsioner məmur vəzifədən çıxarılırsa, deməli o, oğurlaya biləcəyi milyardlardan məhrum olur. Elə bu səbəbdən də vəzifədən getdikdən sonra belələrinin 9/10-u avtomatik olaraq hakimiyyətə müxalif olurlar. Çünkü hakimiyyət vəzifədən çıxarmaqla onları böyük qazanc mənbəyindən məhrum edib. Beləleri vəzifədən gedəndən sonra hakimiyyətə dost ola bilərmi? Onların normal əqidəsi olsaydı, dövlətin malını, pulunu talamazdılar. Talayıblarsa, deməli xəyanət ediblər. Xəyanət ediblərsə, deməli, onlar üçün müqəddəs heç nə yoxdur və onlar vəzifədən uzaqlaşdırıldıqdan sonra on dəfə artıq xəyanət edəcəklər”. **F.Yusifov qeyd edib ki, bu gün Azərbaycan hakimiyyətinin maliyyə müxalifətinin başında da məhz bu xəyanətkarlar dayanır:** “Ona görə mən dəfələrlə təklif etmişəm ki, onların taladıqları pulları hakimiyyət geri qaytarmalıdır. Əks halda, bu pullar hakimiyyətə qarşı istifadə olunacaq. Təəssüf ki, bu gün bu da baş verir. Bu adamların kimliyi hər kəsə bəllidir. Bu adamları tutduqları yoldan geri döndərməyin yeganə yolu onların dövlətdən oğurladıqları pulları geri qaytarmaqdır. Əks halda, bu yoldan heç kim çəkindirə bilməyəcək”.

**YAP-çı deputat Elman Məmmədov “Yeni Müsavat”a açıqlamasında həmkarının fikirlərini müdafiə etdi:** “Siyavuş müəllim bu məsələdə haqlıdır. Əgər həmin keçmiş nazirlər bu iqtidarda təmsil olunublarsa, deməli, eyni zamanda hakim partiyanın üzvləri, həmçinin YAP Siyasi Şurasının və İdarə Heyətinin üzvləri olublar. Həmçinin işlədikləri müddətdə dövlətdə təmsil olunublar, bu dövlətdən, iqtidardan bəhrələniblər, yüksək maaş alıblar, hörmətli şəxs olublar. Siyavuş müəllim deyən kimi, yəqin əlavə gəlirləri də olub, bəhrələniblər, həmçinin xaricdə, daxildə xeyli mal-mülk sahibi olublar. Bir sözlə, dolanışıqları yaxşı olub, firavan yaşayıblar. Bu gün də mən onların içərisində eləsini tanımıram ki, pis vəziyyətdə, təminatsız yaşasın. Keçmişdə nazir olanların hamısı bu gün də yüksək səviyyədə yaşayır. Əgər belədirsə, bəli, onlar dövlətçilik nöqteyi-nəzərindən mövqelərini bildirməlidirlər, dövləti, dövlətçiliyi, iqtidarı müdafiə etməlidirlər, sözlərini deməlidirlər. Onda belə çıxır ki, kimsə vəzifədədirsə, yalandan, gerçəkdən danışır, dövləti müdafiə edir, ancaq vəzifədən uzaqlaşdırılandan sonra deyir ”mən buralı deyiləm?" Təbii ki, belə yaramaz! Mən Siyavuş müəllimlə tamamilə razıyam, onun mövqeyini müdafiə edirəm”.

❑ **Cavid TURAN, “Yeni Müsavat”**

# Əgər Moskvanın istəyi olsa...



**Hüseynbala SƏLİMOV**

**Ukrayna prezidenti öz sözünün üstündə durdu - hələ prezidentliyə namizəd olarkən onun seçkiqabağı vədlərinin mühüm punktlarından biri Moskva ilə məqbul dialoq yollarını aramaq idi.**

Qeyd etmək lazımdır ki, artıq ilk nəticə var - ötən həftənin sonunda əsir və girovların ilk mübadiləsi baş tutdu.

Əlbəttə, yekun söz üçün hələ tələsmək lazım deyil, çünki Rusiya əsirliyində hələ yüzdən artıq Ukrayna vətəndaşı var. Üstəlik də Donbas məsələsində hələ hər hansı boşalma müşahidə olunmur, Krım məsələsinə gəldikdə isə, onun perspektivləri hələ çox mübahisəlidir.

Amma tərəflərin məsələnin humanitar aspektlərindən başlaması, bütün hallarda ümidverici amildir, çünki bu aspektlərin nəzərə alınması gec-tez münaqişənin həlli prosesində uğurlu siyasi və dipolamatik formulların tapılmasına yardımçı ola bilər.

Belə də aydındır ki, Donbas böhranı gec-tez həllini tapacaq. Bu problemi həll etmək üçün Ukraynanın ərazi-inzibati idarəçilik prinsiplərində müvafiq dəyişikliklər etmək və yaxud da bir müddət üçün ikinci dövlət dili kimi rus dilinin də istifadə olunmasına razılaşmaq olar. Bütün hallarda, Rusiya hələ ki, açıq şəkildə bu ərazilərə hər hansı bir iddia irəli sürmür.

Amma Krımla bağlı vəziyyət bir azacıq qəlizdi. Baxmayaraq ki, demək olar, heç bir dövlət onun anneksiyasını tanımır, yenə də aydındır ki, nə qədər ki, prezident V.Putin hakimiyyətdədir və ya onun kölgəsi Rusiya siyasətinin üzərindədi, yəqin ki, məsələ həll olunmayacaq. Sonrasına isə baxarıq...

Amma bu məsələdə bizi tamam başqa məqamlar düşündürür. Rusiyanın açıq şəkildə Ukrayna böhranının bir tərəfi kimi çıxış etməsi, qonşu dövlətin ərazisini işğal etmiş bir ölkə olması, bütün postsovet məkanında mövcud olan münaqişələri qızışdırması və dəstəkləməsi o deməkdir ki, bu ölkə Qarabağ problemində “arbitr” ola bilməz və biz də, həmkarlarımız da bunu dəfələrlə qeyd etmişik.

Prinsipcə, hamı məsələnin bu qoyuluşu ilə razıdır, sadəcə, hamını çəkindirən budur ki, biz əgər qonşumuz gürcülərin Abxaziya və Cənubi Osetiya məsələlərində etdikləri kimi birbaşa Kremli ifşa etməyə başlasaq, onda belə təhlükə var ki, Moskva bütünlüklə Qarabağ separatistlərinin və yaxud da İrəvanın tərəfinə keçə bilər. bu isə münaqişənin nizamlanmasında yeni-yeni ciddi problemlərin yaranması demək olardı.

Odur ki, biz indi çox çətinliklə olsa da, Rusiyanın da resurslarından istifadə etməyə və onu tamam özümüzə qarşı qaldırmamağa çalışırıq və bunun üçün əlbəttə ki, Moskvanın regiondakı maraqlarını nəzərə alırıq.

Amma N.Paşinyanın hakimiyyətə gəlişilə prosesdə tamam qeyri-müəyyən vəziyyət yaranıbdı; Ermənistanın yeni hakimiyyətilə ortaq məxrəc tapılacağı ilə bağlı ümidlər doğrulmadı, üstəlik, Kremlin özünün İrəvanın yeni siyasi isteblişmentilə hələ normal münasibətləri qurulmayıbdı. Ona görə də Kiyevlə Moskva arasında əsirlərin mübadiləsi prosesini müşahidə edərkən ixtiyarsız olaraq düşündük ki, prinsipcə, Bakı ilə İrəvan arasında da belə ola bilərdi.

Demək lazımdır ki, hələ bir il bundan əvvəl Azərbaycan prezidenti belə təkliflə çıxış etmişdi, amma təəssüf ki, Ermənistanın baş naziri həmin o təklifi dəstəkləmədi və bu, bir daha göstərir ki, Ermənistanda hakimiyyətdə demokrat yox, əsl daşnak qərar tutubdur və o, azərbaycanlıların hətta Qarabağ haqqında düşünməyi ağıllarına belə gətirməyə cəsarət etməməsi üçün hər cür qəddarlığa hazırdır...

İstəyi olsaydı, Moskva bu məsələdə əlbəttə, pozitiv rol oynaya bilərdi. Baxın, görün, onlar R.Koçaryanın azadlığa çıxması üçün necə çalışırlar! Düşünürük ki, general N.Patruşevin İrəvan səfərinin də əsas motivlərindən biri məhz Koçaryanın məsələsi idi və demək lazımdır ki, bu günlərdə Ermənistanın konstitusiya məhkəməsi Koçaryanın iddiasını qismən təmin etdi və sentyabrın 12-də İrəvanda birinci instansiya məhkəməsi eks-prezidentin məsələsinə təkrar baxacaq və tamam istisna deyil ki, Koçaryanın “məhbəs ekskursiyaları”na son veriləcək.

Bunları niyə yazırıq? Axı aydındır ki, Rusiyanın xoş iradəsi və məramı olsaydı Bakı və İrəvan arasında da hərbi əsirlərin və girovların mübadiləsi məsələsi sürətlənərdi. Yadımıza gəlir, yaxın vaxtlarda ABŞ hakimiyyəti gecə-gündüz Ankarada həbsdə olan vətəndaşını -adi pastoru azad etmək üçün çalışdı və buna nail də oldu.

Əslində bütün dövlətlər bu cür edir və vətəndaşları arasında fərq qoymur. Amma təəssüf, Rusiyanın hakim dairələrini belə bir fakt narahat etmir ki, Ermənistandakı hərbi əsirlərin arasında Rusiya vətəndaşı - D.Əsgərov da var və hansı ki, Rusiya prezidentinin dostu olmasa da, hər halda, Rusiya vətəndaşı adlanır və bir vaxtlar cibində bu ölkənin pasportunu gəzdiribdi...

**Ötən ilin aprelində keçirilən prezident seçkilərindən sonra xeyli sayda nazirlik və komitələrin rəhbərləri dəyişdi. İlk dəfə olaraq Azərbaycanda hökumət kabinetinin tərkibində bu qədər böyük dəyişiklik baş verirdi. Yeni vəzifəyə təyin olunan şəxslərlə bağlı cəmiyyətdə rəylər müxtəlif oldu. Ən çox müzakirə olunan təyinatlardan biri ASAN-a rəhbərlik edən İnam Kərimovun kənd təsərrüfatı naziri postuna gətirilməsi idi: xeyli sayda insan sahə üzrə mütəxəssis olmayan birinin çox spesifik sahə olan aqrar sektorda hər hansı dəyişikliyə nail olacağını real saymırdılar...**



# Kənd təsərrüfatında nə baş verir - təhlil

## Bünövrə sağlamlaşdırılır, nəticəni isə...

Təyinatdan 16 ay keçib. Ötən müddətdə kənd təsərrüfatı sistemində baş verən proseslər göstərir ki, hər hansı bir sahədə pisliklərin qarşısını alıb, müsbət dönüş yaratmaq üçün heç də həmin sahə üzrə alim olmağa ehtiyac yoxdur. Yaxşı menecer-idarəçi ən məhdud şərtlər daxilində belə neqativliklərin qarşısını ala, müsbət prosesləri başlada bilir...

Baş verənlərə qısa nəzər yetirdikdə diqqəti cəlb edən ən mühüm məqam uzun illər boyu aqrar sektora dövlət dəstəyi sistemində kök salmış nəhəng korrupsiya mexanizminin sındırılmasıdır. Bu mexanizm dövlət dəstəyinin aqrar istehsalçıya çatdırıldığı iki kanalın hər ikisində oturuşmuşdu: kənd təsərrüfatı texnikasının, maşın və avadanlıqların, gübrələrin, cins heyvanların xaricdən alınıb gətirilərək istehsalçılara güzəştli şərtlərlə verilməsi; əkinə və məhsula, həmçinin motor yağları və yanacağa görə dövlətin kəndliyə verdiyi subsidiyanın çatdırılması. Hər iki istiqamətdə dövlət dəstəyi mexanizmi 2004-cü ildən tətbiq olunurdu və bu gün heç kim inkar edə bilməz ki, hər ikisində korrupsiya, mənimsəmə halları baş alıb gedirdi.

Texnika, maşın və avadanlıqların, gübrələrin, cins heyvanların alınıb gətirilərək istehsalçıya çatdırılması işini "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti həyata keçirirdi. Hansı ki, bu ASC uzun illər boyu korrupsiya, dövlət vəsaitlərinin talandığı əsas qurumlardan biri olub. Bu qurumda aparılan yoxlamalar bir qayda olaraq böyük mənimsəmə və qanunsuzluqların aşkarlanması ilə nəticələnib.

Rəsmi məlumatlara əsasən, "Aqrolizinq" 2005-2017-ci illərdə texnika, avadanlıq və mineral gübrələrin alınması üçün 1,5 milyard manatdan çox vəsait əldə edib. "Aqrolizinq" sistemindəki korrupsiya uzun illər boyu dövlətin aqrar sahəyə ayırdığı miyardlarla manat vəsaitin ünvanına çataraq sektorda inkişafla nəticələnməsinə imkan verməyib.

Üstəlik, yerli istehsalçılar xaricdən alınıb gətirilən ucuz və keyfiyyətsiz gübrələrə möhtac qoyulub - "Aqrolizinq"dən başqa heç kimə gübrə idxal etməyə imkan verilməyib.

Aqrar sahəyə dövlət dəstəyi mexanizminin digər istiqaməti olan subsidiyaların aqrar istehsalçılara çatdırılması sistemində də böyük həcmdə pozuntular vardı. Bu pozuntuları zaman-zaman ölkə prezidenti də öz çıxışlarında vurğulayıb. Məsələn, 2014-cü il fevralın 5-də regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrasına həsr olunmuş konfransda çıxışı zamanı prezident bildirib ki, kənd təsərrüfatı üçün nəzərdə tutulan subsidiyaların ayrılmasında şəffaflıq gözlənilmir: **"Subsidiyaların verilməsində tam şəffaflıq təmin edilməlidir. Mən keçən dəfə də, bir il bundan əvvəl də bu barədə danışmışam, bu gün də məcburam bu barədə öz fikirlərimi bildirim. Burada biz şəffaflığa nail olmamışıq. Şəffaflıq təmin edilmir və burada oturanlar bilirlər şəffaflıq nəyə görə təmin edilmir. Bu mənim son xəbərdarlığımdır. Subsidiyanın verilməsində tam şəkildə nəzarət-uçot sistemi yaradılmalıdır. Kənd Təsərrüfatı Nazirliyinə bu göstərişlər verilmişdir. Yerli icra orqanlarının nümayəndələri də burada öz müsbət rolunu oynamalıdırlar. Çünki bəzi hallarda subsidiyalar fermerlərə çatmır. Ona görə konkret təkliflər veriləcəkdir və yeni müvafiq sərəncam da imzalanacaqdır".**

Prezident Nazirlər Kabinetinin 2018-ci ilin yekunlarına həsr olunan iclasındakı çıxışında da aqrar sahəyə dövlət dəstəyi sistemindəki problemlərdən danışıb. Xüsusilə də subsidiyaların verilməsində və gübrələrin alınmasında yol verilən pozuntulardan danışan İ.Əliyev qeyd edib ki, subsidiyalar bəzən ünvanına çatdırılmayıb, yaxud da pərakəndə şəkildə verilib. Həmçinin ölkəyə keyfiyyətsiz kübrələr gətirilib ki, onların da kənd təsərrüfatına xeyrindən çox ziyanı dəyib: **"Subsidiyalarla bağlı təkliflər imkan verəcək ki, bu sahədə də müsbətə doğru çox ciddi dönüş yaransın. Çünki subsidiyaların verilməsində də böyük pozuntular olmuşdur. Bəzi hallarda subsidiyalar ünvana çatmırdı, bəzi hallarda çox kortəbii şəkildə verilirdi. Dövlət tərəfindən güzəştli şərtlərlə alınması nəzərdə tutulan gübrələr də bir çox hallarda keyfiyyətsiz idi. İndi gübrə təminatında dövlət 70 faiz yükü öz üzərinə götürür. Amma bəzi hallarda keyfiyyətsiz, müddəti keçmiş gübrələr gətirilirdi və o, kənd təsərrüfatına xeyirdən çox ziyan verirdi. Digər pozuntular da olub. Ona görə bütün pozuntular aradan qaldırılmalıdır. Kənddə işləyən vətəndaş daim hiss etməlidir ki, dövlət hər zaman onun yanındadır."**

Kənd Təsərrüfatı Nazirliyinin yeni rəhbərliyi ilk aylardan etibarən birinci sahənin - texnika, maşın və avadanlıqların aqrar istehsalçılara güzəştli satışı sisteminin şəffaflaşdırılması, buradakı korrupsiya piramidasının aradan qaldırılması üçün araşdırmalara başladı. İlin sonuna yaxın hazırlanan təkliflər əsasında bu sistemdə şəffaflıq yaradan, "Aqrolizinq"i prosesə rəhbərlikdən uzaqlaşdıran tamamilə yeni mexanizmin tətbiqinə başlandı: artıq kənd təsərrüfatı texnikasını, maşın və avadanlıqları, gübrələri, cins heyvanları ölkəyə kim istəsə gətirə və istehsalçıya satır. Satıcının kimliyindən asılı olmayaraq, gətirdiyi mal müəyyənləşdirilmiş keyfiyyət göstəricilərinə uyğundursa, alıcı onu dövlətin dəstəyi ilə əldə edə bilir.

Bu ilin iyul-avqustunda isə ikinci istiqamətdə - aqrar subsidiyaların istehsalçılara çatdırılması sahəsində mühüm dönüşə səbəb olacaq qaydalar hazırlanıb və gələn ilin yanvarından tətbiqinə başlanacaq. Yeni mexanizmin əsas üstünlüyü budur ki, subsidiyanı hansısa məmurlar deyil, müasir texnologiyalar hesablayacaq, istehsalçının kartına köçürəcək.

### İntensiv genişlənməyə keçid

Kənd təsərrüfatında uzun illərdən bəri cəmiyyəti, mütəxəssisləri narahat edən əsas problemlərdən biri də ekstensiv genişlənmə idi: istehsal yalnız yeni əkin sahələrinin dövriyyəyə daxil edilməsi, heyvanların baş sayının artırılması hesabına genişlənirdi. İnkişaf etmiş ölkələrin böyük uğurla tətbiq etdiyi müasir intensiv üsullardan istifadə olunmurdu. Nəticədə əkinlər məcburi qaydada genişləndirilir, insanların uğurla heyvandarlığı inkişaf etdirdiyi ərazilər iqlim şəraitinə, suvarma imkanlarına uyğun olmayan bitkilərin əkini altına verilirdi. Ötən ildən etibarən bu sahədə də ciddi dönüş başlayıb. İlk addım pambıqçılıqla bağlı atılıb - 2018-ci ildə 132 min hektar olan əkinlər bu il 100 minə endirilib, pambıqçılıq üçün əlverişli iqlim və torpaq imkanlarına malik rayonlar müəyyənləşdirilib.

Bu sahədə daha mühüm bir addım yeni subsidiyalaşma qaydalarıdır. Qaydalarda hər bitki üzrə konkret rayonlar müəyyənləşdirilib - dövlət dəstəyi yalnız həmin rayonlarda yetişdirilən bitki üçün veriləcək. Eyni zamanda yeni qaydalar intensiv becərmə, əkin üsullarından istifadə edənləri stimullaşdırır. Bundan əlavə, strateji məhsul olan buğda istehsalında keyfiyyəti yüksəltmək məqsədilə yalnız sertifikatlaşdırılmış toxumdan istifadə edən istehsalçılara dövlət subsidiyasının verilməsi qərara alınıb. Heyvandarlıqda isə cins heyvanlardan alınan toxumla süni mayalanmadan əldə olunan buzova görə subsidiya ödənilir.

Dövlətin aqrar sahəyə daha bir dəstək mexanizmi - aqrar sığorta sistemi də gələn ildən etibarən işləməyə başlayacaq. Aqrar istehsalçıların maliyyə resurslarına çıxış imkanlarını qat-qat artıracaq bu mezanizm dövlət-özəl əməkdaşlığını nəzərdə tutur.

Nəhayət, aqrar sektorda diqqəti cəlb edən daha bir mühüm proses kooperativlərin yaradılmasına başlanması, bu prosesin ciddi güzəştlərlə stimullaşdırılmasıdır. Kənd təsərrüfatı yüksək inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, bölünmüş və xırda təsərrüfatlarla bu sahədə irəliləyiş əldə etmək mümkün deyil. Azərbaycanda "Kənd təsərrüfatı kooperasiyaları haqqında" Qanun 5 ilə yaxındır qəbul olunsa da, tətbiqi ilə bağlı problemlər qalırdı. Artıq bu sahədə də ciddi addımlar atılmaqdadır.

### Hansı problemlər qalır?

Əlbəttə, 16 ayda aqrar sektorun bütün problemlərinin həll olunduğunu söyləmək mümkün deyil. Bu sahəyə rəhbərlik edən komandanın qarşısında bir sıra ciddi və həllini gözləyən məsələlər durur. Bunlardan biri xırda və orta istehsalçıların məhsullarının bazarlara çıxarılması məsələsidir: kəndlinin, fermerin məhsulu yerində az qala maya dəyərinə alınır, ölkə xaricində, yaxud Bakıda dəfələrlə bahasına satılır. Bu isə istehsalçıların gəlirinin azalmasına, onların ruhdan düşməsinə, ən əsası isə narazılığa səbəb olur. Düzdür, pambıq, tütün, şəkər çuğunduru və sair bitkilər üzrə emal müəssisələr tərəfindən zəmanətli alış sistemi tətbiq olunur. Lakin bir sıra məhsullar var ki, belə sistem olmadığı üçün fermerlər məhsulunu satmaqda ciddi çətinliklərlə üzləşirlər. Məsələn, bu il Azərbaycanda bol üzüm yetişib, amma istehsalçılar məhsullarını uyğun qiymətə reallaşdırmaqda çətinlik çəkirlər. Elə pomidorla bağlı da eyni vəziyyət yaranıb. Emal müəssisələri çox aşağı qiymət müəyyənləşdiriblər: Məsələn, Xaçmazda pomidorun 30 kiloqramlıq yeşiyini 4 manata - 1 kq=13 qəpik qəbul edirlər. Halbuki Bakıda pomidorun kiloqramı 50-60 qəpiyədir.

KTN Aqrar Tədarük və Təchizat ASC vasitəsilə istehsalçılar üçün alternativ alıcı qismində çıxış edə, yaxud kütləvi yetişdirilən məhsulların Bakı, Sumqayıt kimi şəhərlərin bazarlarına çatdırılması üçün işlək mexanizm tətbiq edə bilər.

Aqrar sahə ilə bağlı digər problemli məsələ "Aqrolizinq"in yerli şöbələrində olan texnikadan istifadə imkanlarının məhdudluğudur. Yerli icra strukturlarının nəzarətində olan bu şöbələrin texnikası bir çox hallarda xırda istehsalçılar üçün əlçatmaz olur. Düzdür, taxıl, pambıq biçini ilə bağlı bu proses təkmilləşdirilib, amma digər btikilər üzrə əkin, səpin və aqrotexniki qulluqla bağlı problemlər qalmaqdadır.

Son olaraq qeyd edək ki, aqrar sektorda tətbiqinə başlanan yeni mexanizmlərin, qaydaların ideal olacağını, hər şeyin bir anda dəyişəcəyini gözləmirik. İlkin mərhələlərdə çətinliklərin olacağı, müəyyən problemlərin yaşanacağı çox realdır. Bu baxımdan, yeni nazir İ.Kərimov və onun komandasının işi ASAN olmayacaq. SAĞLAM bünövrə qoymağa çalışan komandanın nə qədər uğur qazanacağını, eyni zamanda aqrar sektorda başladılan proseslərin effektivliyini yəqin ki, ən tezi 3-4 ildən sonra qiymətləndirə biləcəyik...

**❑ Dünya SAKİT, "Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Qarabağ danışıqlarının "donu" payızda açılacaq?

## İşğalçıya konkret vaxt verməyin zamanı çatıb; iki paytaxtdan işğalçıya növbəti ortaq xəbərdarlıq; **politoloq:** "Bakı Paşinyana təklif edə bilər ki..."

**Qarabağ danışıqlarında durğunluğun daha nə qədər sürəcəyi hələ ki bəlli deyil. Görünən budur ki, işğalçı ölkəyə, eləcə də həmsədr dövlətlərə danışıqlardan çox, danışıqların imitasiyası sərf edir. Ermənistan rəhbərliyinin mövqeyi isə konfliktin dinc yolla həllində ən kövrək irəliləyiş ehtimalını belə istisna edir. Sövq-təbii müharibə variantı öz ciddiliyini saxlamaqdadır. Təbii ki, mövcud riskli durumu radikal ritorikadan əl çəkməyən işğalçı tərəf də fərq etməyə bilməz.**

Hər necə olmasa, İrəvanda nəticəsiz danışıqların, süni surətdə uzadılan atəşkəs rejiminin yeganə alternativinin müharibə olduğunu bilməmiş deyillər. Odur ki, ara-sıra düşmən tərəfdən şablon bəyanatlar da eşidilir. Başqa sözlə, Ermənistan iqtidarı bir yandan dinc nizamlama prosesini tormozlamaq siyasəti aparırsa, digər yandan, özünü dünyaya sülh carçısı kimi göstərməyə, Qarabağla bağlı danışıqlarda real irəliləyişə məhz Bakının mövqeyinin əngəl olduğunu sübut etməyə səy edir - həm də uğursuzcasına.

*****

"Yaxın vaxtlarda Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarovla Ermənistan xarici işlər naziri Zohrab Mnatsakanyan arasında görüş keçiriləcək". Bu sözləri ötən həftəsonu Ermənistanın xarici işlər naziri Zohrab Mnatsakanyan İrəvanda keçirdiyi mətbuat konfransında bildirib. Bir sıra ekspertlərə, o cümlədən politoloq Tofiq Zülfüqarova görə, belə bir görüş BMT-nin Baş Məclisinin gələn həftə başlayacaq növbəti illik toplantısında həqiqətən baş tuta bilər. "Bu da danışıqların öz axarı ilə davam etdirilməsini göstərmək məqsədilə ediləcək", - deyə o qeyd edib.

Yəni yenə görüntü məsələsi. Belə təəssürat yaranır ki, bu görüntüdə indi hamı maraqlıdır, təkcə Azərbaycandan savayı. Çünki əraziləri on illərdir işğal altında saxlanılan Azərbaycandır. Bu mənada




məntiqli olardı ki, Amerikada, BMT-nin ali sessiyası çərçivəsində ilk növbədə BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağla bağlı 26-27 il öncə qəbul elədiyi və hələ də kağız üzərində qalan 4 məlum qətnaməsi həmsədrlərin iştirakı ilə müzakirə ediləydi. Bəlkə onda sülh danışıqlarının "donu"nun açıldığını söyləmək mümkün olaydı. Əks halda, nəticəsi qabaqcadan bəlli olan, yeni nəticəsiz danışıqlarda Azərbaycan tərəfinin iştirakının heç bir anlamı qalmır - xüsusən də İrəvan rəsmilərinin son radikal və sərsəm bəyanatları fonunda.

Əslində düşmən tərəfə konkret vaxt verməyin zamanı çatıb. Çünki illər illərə calansa da, düşmən ölkə öz işğalçı siyasətindən əl çəkməyə hazır görünmür. Ermənistanın yeni rəhbəri isə hətta öz sələflərindən - Serj Sərkisyan və Robert Köçəryandan da maksimalist və absurd siyasət aparır. Baş nazir Nikol Paşinyanın "Dağlıq Qarabağ Ermənistanındır" bəyanatı da Bakının İrəvana ultimatumunu zəruri edir.

*****

İşğalçı ölkə rəhbərliyinin sülh prosesini torpedalayan siyasəti Azərbaycan üçün hərbi amili heç vaxt olmadığı qədər aktual edir. Bakı sözsüz ki, "qızıl fürsət" anına kimi öz silahlı qüvvələrinin hərbi və döyüş hazırlığını davam etdirəcək. Bu yöndə yeni növ silah-sursatların alınması ilə yanaşı, qardaş Türkiyə ilə ortaq təlimlərin keçirilməsi və təcrübə mübadiləsi aparılması, bütövlükdə iki ölkə arasında hərbi və hərbi-texniki əməkdaşlığın ən yüksək səviyyəyə qaldırılması mühüm önəm kəsb edir.

Xəbər verildiyi kimi, artıq "TurAz Qartalı - 2019" birgə taktiki-uçuş təlimlərində iştirak etmək üçün Türkiyə heyətinin növbəti qrupu Azərbaycana gəlib. Müdafiə Nazirliyindən verilən məlumata görə, sentyabrın 2-dən 16-dək keçiriləcək təlimlərdə MiQ-29, F-16, Su-25, P-235 "Kasa" təyyarələri, Mi-35, Mi-17, "Sikorski" UH-70, CH-47 "Çinok" və ATAK/AH-1W helikopterlərindən ibarət 30-dək aviasiya vasitəsi iştirak edəcək.

Bu, ədalətli sülhdən qaçan təcavüzkar tərəfə Bakı və Ankaranın daha bir güc nümayişidir. Eyni zamanda, İrəvana və sülh prosesini dalandan çıxarmaq yönündə heç bir əməli təşəbbüs göstərməyən və hadisələrin quyruğunda sürünən vasitəçi dövlətlərə növbəti ortaq xəbərdarlıqdır.

*****

Sözsüz ki, Ermənistanın Qarabağ məsələsində xoş məramı və konstruktivliyi işğal altındakı Qarabağda qanunsuz şəkildə saxlanılan iki günahsız girovumuzun Azərbaycanda saxlanılan iki erməni ilə "hamının hamıya" prinsipi üzrə dəyişdirilməsinə razılıq verməsindən başlaya bilər. Təəssüf ki, rəsmi Bakının bu yöndə təklifi də neçə vaxtdır cavabsız qalır.

Maraqlıdır ki, bu arada Nikol Paşinyan ötən həftə Ukrayna ilə Rusiyanın eyni sayda əsir və girovların bir qisminin dəyişdirilməsini təqdir edib. "Girovların dəyişdirilməsi Rusiya ilə Ukrayna arasında sülhün əldə olunmasına dəstək olacağına ümid edirik", - deyə Paşinyan qeyd edib və "iki xalq arasında münasibətlərin bərpasının alternativi olmadığını" bildirib.

Təbii ki, eyni fikir Azərbaycan və erməni xalqlarına da aiddir. Bu iki xalq da nə vaxtsa sülh və əmin-amanlıq şəraitində yaşamalı olacaq. Lakin iki qonşu xalqın barışığı müstəsna olaraq işğalçı tərəfin rəhbərliyinin iradəsindən asılıdır. Ayrı sözlə, "top" çoxdan Ermənistanın tərəfindədir.

**"Biz iki girovumuzun bizim əlimizdəki eyni sayda Ermənistan vətəndaşına dəyişdirilməsini İrəvana təklif edə bilərik". Bunu politoloq Elxan Şahinoğlu Paşinyanın girovların dəyişdirilməsinə bağlı açıqlamasını şərh edərkən deyib.**

"Ermənistanın baş naziri sosial şəbəkədə paylaşdığı son statusda Rusiya ilə Ukrayna arasında girovların "hamıya hamıya" prinsipi ilə dəyişdirilməsini təqdir edib. İndi bizdən nə tələb olunur? Azərbaycan Xarici İşlər Nazirliyi təkrar bəyanatlar yayınlamaqdansa yaradıcı yanaşma ortaya qoyaraq Paşinyanın son statusundan bəhrələnsin. Paşinyan statusunda girovların "hamının hamıya" prinsipi ilə dəyişdirilməsini tərifləyib. Biz də onun bu fikrinə istinad edərək Dağlıq Qarabağdakı 2 girovumuzu bizim əlimizdə olan eyni sayda Ermənistan vətəndaşına dəyişdirilməsini İrəvana təklif edək", - deyə o əlavə edib.

Qalır düşmən tərəfin rəhbərinin dilindən tutmaq...



# "Ermənistan özü-özünü aldatmaqla məşğuldur" - bəyanat

**Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması işğal edilmiş ərazilərimizdə keçirilmiş "yerli özünüidarəetmə orqanlarına seçkilər" ilə əlaqədar bəyanat yayıb. "Yeni Müsavat" bəyanatı təqdim edir:**

"Azərbaycan Respublikasının işğal edilmiş Dağlıq Qarabağ bölgəsində 8 sentyabr 2019-cu il tarixində "yerli özünüidarəetmə orqanlarına seçkilər" adı altında növbəti "seçki şousu" təşkil edilib. Reallıq hissini itirmiş təcavüzkar Ermənistan və əlaltısı olan cinayətkar Qarabağ xuntasının atdığı bu addım tam qanunsuzdur, heç bir hüquqi əsası yoxdur və demokratiya və seçki adına böyük bir təhqirdir. Qondarma xuntanın saxta "rəhbərləri" olan Bako Saakyan, Aşot Qulyan və onların ətrafındakı digər demokratiya "əzabkeşləri"nə bildiririk ki, onların demokratiya pərdəsi altında gizlənmək niyyətləri istehza doğurur və Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edildiyi və etnik təmizləmənin həyata keçirildiyi bir şəraitdə bu "seçkilər" nəticəsi beynəlxalq ictimaiyyət tərəfindən tanınmayan və təcavüzkarı növbəti dəfə ifşa edən bir şoudur. Əslində işğalçı Ermənistan və qanlı xunta belə "seçkilər" keçirməklə beynəlxalq ictimaiyyəti deyil, yalnız özü-özlərini aldatmaqla məşğul olur. Saxta "seçkilər" həmçinin Ermənistan hakimiyyəti və qondarma rejim arasında ixtilafların mövcudluğunu bir daha açıq şəkildə büruzə verdi. Bundan isə əziyyət çəkən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması ilə bərabər, həm də elə erməni icmasıdır. Tam əminik ki, Dağlıq Qarabağda yaşayan ermənilər, Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədləri bərpa olunduqdan sonra geriyə dönəcək azərbaycanlılarla birlikdə ölkəmizin konstitusiyası və bələdiyyələr haqqında qanunlarına uyğun olaraq yerli özünüidarəetmə orqanlarına keçiriləcək qanuni seçkilərdə iştirak edəcək".

Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında nəşr olunur. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 186 (7356) 10 sentyabr 2019

# Ziya Məmmədovun daha bir obyekti əlindən alındı

## Sabiq nazir bir yandan siyasi qürub çağını yaşayır, digər yandan isə...

**Paytaxtın Rəşid Behbudov küçəsində keçmiş nəqliyyat naziri Ziya Məmmədova aid olduğu bildirilən çoxmərtəbəli ofis sürətlə sökülür. Bu barədə məlumat yayan Qaynarinfo saytı bildirib ki, 1 saylı İqtisad Məhkəməsi və Nəsimi Rayon Prokurorluğunun yaxınlığında, Bakıxanov küçəsi-42 ilə paralel yerləşən, müasir tələblərə cavab verən binanın söküntü işlərinə üç gündür start verilib.**

Söküntü işi üçnövbəli iş qrafiki ilə aparılır. Söküntüsü aparılan bina özəlliyi ilə fərqlənirdi. Binanın damında eyni anda iki helikopterin enə biləcəyi meydança vardı. Elə söküntüyə də helikopter meydançasının səbəb olduğunu iddia edənlər var.



Saytın yazdığına görə, 2010-cu ildə istifadəyə verilən binada Ziya Məmmədovun oğlu Anar Məmmədovun rəhbərlik etdiyi "ZQAN" holdinqin əsas ofisi və holdinqə aid olan törəmə şirkətlər, eləcə də ayrı-ayrı icarədar holdinq və şirkətlərin də ofisləri yerləşib. Söküntüyə rəhbərlik edən növbəli briqadaların birinin iş icraçısı binanın təcili və sürətlə sökülməsi tapşırığını aldığını deyib.

Ziya Məmmədov hazırda faktiki olaraq heç bir vəzifə daşımır. O, "Yeni Müsavat"a müsahibəsində ibadətlə məşğul olduğunu söyləmişdi. Mətbuatdan məlumdur ki, sabiq nəqliyyat naziri vəzifədə olarkən oliqarxa çevrilmişdi. O, sərbəst şəkildə heç ayda 5000 manat pul qazana bilməyəcək oğlu Anar Məmmədovu iş adamı elan edib, dövlətdən oğurladığı pulları onun sərəncamına verib dövr etdirirdi. Məmmədovlar xeyli sayda şirkətlər yaratmışdılar, bank sahibi olmuşdular ("Bank of Azerbaijan"). Üstəlik, ölkə boyunca min hektarlarla torpaq sahələrini yağmalamışdılar. Hətta Bakı Beynəlxalq Avtovağzalını da özəl obyektləri kimi rəsmiləşdirməyə nail olmuşdular...

Məmmədov vəzifədən azad edildikdən sonra onun mülkləri də əlindən alınmağa başladı. 2017-ci ildə Ziya Məmmədovun regionlarda ələ keçirmiş olduğu böyük mülklərin ondan geri alınması prosesinin sürətlənməsi ilə bağlı xəbərlərə rast gəlirik. Belə ki, o, nazir işlədiyi vaxtlarda Göyçayın Potu və Hüngütlü kəndləri arasında yerləşən 20 hektardan artıq səfalı yeri zəbt eləmişdi.

Məlumatlara görə, həmin ərəfədə Ziya Məmmədovun Ucardakı müəssisələri, obyektləri, Göyçay, Goranboy və Tərtər ərazisindəki daş-çınqıl karxanaları əlindən alınıb. Hətta bu ilin mart ayında Musavat.com-a məlumat daxil oldu ki, Ziya Məmmədov uzun illərdir ziyarət etmədiyi villasına 310 min manat qiymət qoyaraq, satışa çıxarıb. İki böyük giriş qapısı olan bu mülk 2 hektara yaxın torpaq sahəsində yerləşir. Bir zamanlar sabiq nazirin və ailə üzvlərinin tez-tez baş çəkdiyi həmin bağ evinin həyətində meydança, ayrı tikilidə idman və əyləncə zalı da var.

Lakin özü siyasi qürub çağını yaşasa da, eks-nazirin yaxın ətrafına yenidən etimad edilib, vəzifələr verilib. Belə ki, Ziya Məmmədovun qardaşı Elton Məmmədov bu ilin may ayında təhsil nazirinin əmri ilə Azərbaycan Texniki Universitetində (AzTU) Strateji inkişaf üzrə prorektor təyin edilib. O, bundan öncə 3 çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olub.

Həmçinin bu ilin iyun ayında Elton Məmmədovun oğlu Aynar Məmmədovun da vəzifəsi yüksəldilib. Belə ki, iyun ayında Azərbaycan Respublikası Milli Məclisi Aparatında və İşlər İdarəsində inzibati vəzifə tutan bir qrup dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi haqqında sərəncam imzalanıb. Sərəncamda Milli Məclisin Beynəlxalq münasibətlər şöbəsinin əməkdaşı Aynar Elton oğlu Məmmədovun da adı qeyd olunur. Sərəncamın elan olunduğu gündən Aynar Məmmədov sözügedən şöbənin baş müşaviri vəzifəsində çalışır.

**Məsələ ilə bağlı Elton Məmmədov həmin zaman mətbuata açıqlamasında bildirib ki, Aynar Məmmədov uzun illərdir Milli Məclisdə çalışır:** "Əvvəl kiçik məsləhətçi, sonra kiçik müşavir, bu gündən isə baş müşavir vəzifəsində öz işini davam etdirəcək".

Ekspertlər bildirirlər ki, Ziya Məmmədovun özünün bağışlanması mümkün görünmür. Onlar hesab edirlər ki, Məmmədovun çoxsaylı qanunsuz əməlləri ilə yanaşı, yaratdığı "əsərlər" sırasında bu gün də şəhərdə "gəzən hamam"ları xatırladan narahat avtobuslar, sökülüb yararsız vəziyyətə düşən Quba yolu var. Hansı ki, bütün bunlar hələ də insanlara əziyyət verir, dövlət büdcəsindən yenidən əlavə vəsaitlərin ayrılmasına səbəb olur...

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Müxalifət deputatların sayının 201 olmasını istəyir - səbəb

## Partiya təmsilçiləri Müsavat qərargahında bir araya gəldilər

**Müsavat Partiyasının qərargahında Müsavat, AXCP, REAL Partiyası və bir qrup ictimai təşkilatın təmsilçilərinin iştirakı ilə dəyirmi masa keçirilib. Tədbirdə bu il Azərbaycanda bələdiyyə, gələcəkdə isə parlament seçkilərinin keçirilməsi mövzusu ətraflı müzakirə edilib və təkliflər irəli sürülüb.**



Tədbirdə ümumi gəlinən nəticə bundan ibarət olub ki, azad və ədalətli seçkilər yalnız demokratik seçkiqabağı vəziyyət yaranması şərti ilə reallaşa bilər. Bu, seçki qanunvericiliyinin demokratikləşdirilməsini, bərabər siyasi rəqabət mühitinin yaradılmasını nəzərdə tutur. Qeyd edilir ki, ölkədə möhkəm sabitlik yalnız xalqın öz iradəsini demokratik və azad şəkildə bildirməsi nəticəsində təmin oluna bilər.

**REAL Partiyasının icraçı katibi Natiq Cəfərli bildirib ki, vətəndaşların seçkilər prosesinə etimadını qaytarmaq lazımdır. Ona görə də onun fikrincə, atılmalı addımlardan biri kimi proporsional seçki sisteminin bərpası vacibdir:** "İnsanların seçkilərə inamını qaytarmalı və onları mitinqlərə deyil, səsvermə məntəqələrinə getməyə çağırmalıyıq. Biz illərlə 100 min nəfəri mitinqlərə çıxara bilmirikse, ağıllı səsvermə strategiyası hazırlamalı və seçki institutlarını bərpa edərək, insanları seçkilərə çağırmalıyıq".

Müzakirələrin davamında dəyirmi masa iştirakçıları parlament üzvlərinin sayının 125-dən 201-ə qədər artırılması, seçki komissiyalarının tərkibinin Venesiya Komissiyasının tövsiyələri nəzərə alınmaqla dəyişdirilməsi, bələdiyyələrin səlahiyyətlərinin artırılması, vahid şəhər bələdiyyələrinin yaradılması, ATƏT DTİHB-nin qısamüddətli və uzunmüddətli müşahidəçilərinin seçkilər prosesinə cəlb edilməsi zərurəti barədə fikir bildiriblər.

**Bu barədə "Yeni Müsavat"a danışan Natiq Cəfərli dedi ki, 1995-ci ildən Milli Məclis üzvlərinin sayı 125 nəfər müəyyən edilib:** "O dövrdə Azərbaycan əhalisinin sayı indikindən 2 milyon 500 min nəfər az idi. Böyük seçici kütləsi yaranıb və seçicilərin təmsilçiliyinin artırılması vacibdir. Əhalinin sayı 10 milyona çatıb. Deputatların sayının məhz 201 olması təklifi isə onunla əlaqədardır ki, səsvermədə yarı-yarıya rəqəm olmasın. Bu təklif əslində 2013-cü ildə bizim təşkilatın qəbul etdiyi proqram sənədlərində əksini tapıb. Biz təklif edirik ki, ilkin mərhələdə yarı proporsional, yarı majoritar seçki sisteminə vacibdir. Proporsional seçki sistemi bərpa olunmalıdır. Bu da ölkədə partiyaların güclənməsinə, diskussiya mədəniyyətinin yaranmasına, partiyaların ideoloji bazada mübarizə aparmasına şərait yaradacaq. İlkin etap kimi qarışıq seçki sistemi, sonra isə tamamilə proporsional seçki sistemi tətbiq olunmalıdır. Buna indidən zəmin yaratmağa ehtiyac var".

**N.Cəfərli qeyd etdi ki, keçirilən tədbirdə irəli sürülən təkliflərdən hakimiyyət də məlumatlıdır:** "Hələ təklifləri rəsmi şəkildə göndərməmişik, amma bu təkliflər illərdir bizim təşkilatın saytında yerləşdirilib, səsləndirilib və şübhəsiz ki, hakimiyyət təmsilçiləri bununla tanışdırlar. Təklifləri rəsmi şəkildə göndərmək fikrimiz yoxdur. Ona görə ki, müasir dövrdə buna ehtiyac yoxdur. Hakimiyyət tərəfi mediadan, internet üzərindən bu təkliflər barədə məlumat ala bilir. Təklif əslində onlardan gəlməlidir. Biz təklifimizi dilə gətiririk. Əgər bu istiqamətdə müzakirə aparmaq istəyirlərsə, məmnuniyyətlə müzakirələrə qoşularıq".

Müxalifət düşərgəsinin sözügedən təkliflərə münasibətinin necə olduğuna gəlincə, N.Cəfərli dedi ki, Müsavat Partiyası təklifi müsbət qarşılayır, AXCP-dən dəqiq münasibət olmayıb, digər partiyalardan isə hələlik açıq münasibət müşahidə etməyib.

**Milli Məclisin deputatı Fazil Mustafa isə bildirdi ki, istənilən təklif dəyərləndirilə bilər. Nə qədər seçiciyə nə qədər millət vəkili düşür, onun nisbətinə görə Milli Məclis deputatlarının sayı müəyyən olunmalıdır:** "İndi təxminən 45 min seçiciyə bir millət vəkili düşür. Ona görə də deputatların sayının artırılması məsələsi barədə düşünmək olar. Daha geniş spektrdə parlament təmsilçiliyinin olmasının zərəri yoxdur. Sayı artırmaq konstitusiya dəyişikliyi tələb edir. Konstitusiya dəyişikliyini isə referendum yolu ilə etmək lazımdır. Buna gedilməsinin indiki mərhələdə nə qədər real olduğunu söyləməkdə isə çətinlik çəkirəm".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 186 (7356) 10 sentyabr 2019

# Azərbaycan-İran münasibətlərinə “dron uçurmaq” cəhdi

## Və ya Bakını “qan ocağına” çəkmək kimə və nə üçün lazımdır?

**İraqın könüllülərdən ibarət ordusu “Həşd-Şabi”nin komandiri Əbu Mehdi Əl-Muhəndis avqustun 21-də İraq ərazisində onlara məxsus bazanın vurulmasında iştirak edən dronların Azərbaycandan gətirildiyini iddia edib. Əl-Muhəndis ABŞ-ı İsrail dronlarını İraq və İranı hədəfə almaq üçün Azərbaycana yeritməkdə günahlandırıb: “Donald Tramp İraqın suverenliyini pozmağın müxtəlif yollarını nəzərdən keçirir. Amerikalıların ABŞ donanmasının tərkibində 4 İsrail dronunu hazırlayaraq Azərbaycan üzərindən İraqın hərbi qərargahlarını hədəfə almasını həyata keçirməsi barədə bizdə dəqiq və təsdiqlənmiş məlumat var”.**



Avqustun 28-də Britaniyanın “The Guardian” qəzetində dərc olunmuş məqalədə qeyd olunurdu ki, İraqdakı şiə militantlar İsrailin Azərbaycandan buraxdığı dronlarla bu ölkənin şimalında və mərkəzində hədəfləri vurduğunu iddia edirlər. Region rəsmiləri İraqın həmin hissələrindən İsrail yaxınlığındakı İran mövqelərinə silah göndərildiyini bildirirlər.

**Qəzet yazıb ki, Əbu Mehdi əl-Mühəndis deyib:** “Bizdə olan dəqiq və təsdiqlənmiş informasiyaya görə, bu il amerikalılar Azərbaycan ərazisindən İsrailin dörd dronunu buraxıblar. Bu dronlar ABŞ qüvvələri tərkibində uçuşlar gerçəkləşdirəcək, İraqın hərbi bazalarını hədəfə alacaq”.

Ancaq Azərbaycan tərəfi dərhal rəsmi qaynaqlar vasitəsilə bu iddiaları təkzib etdi. Əvvəlcə avqustun 23-də Müdafiə Nazirliyi rəsmi açıqlama yayaraq iddianı təkzib etdi. Nazirliyin açıqlamasında qeyd olunurdu ki, bəzi xarici internet media resurslarında ABŞ tərəfindən İsrail dronlarının Azərbaycana gətirilərək İraq və İrana hücum edilməsi barədə verilən məlumatın heç bir əsası yoxdur, yalandır və dezinformasiya məqsədilə yayılıb.

**Avqustun 30-da isə Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva məsələ ilə bağlı açıqlama verib:** “Təəssüflə qeyd etmək istərdik ki, bəzi xarici media resurslarında İsrail dronlarının İraq və İrana hücum edilməsi məqsədilə Azərbaycana gətirilməsi ilə bağlı tamamilə əsassız məlumatlar tirajlanmağa davam edir. Biz bu məlumatı qətiyyətlə rədd edirik, bu məlumatların heç bir əsası yoxdur və dezinformasiya məqsədi daşıyır”.

Zahirən mövzunun bu açıqlamalarla qapandığını düşünmək olardı. Çünki daha əvvəl də İran tərəfindən bu tip açıqlamalar olub, ancaq sonradan rəsmi Bakı ən yüksək səviyyədə təkzib verərək bu ittihamları rədd edib. Azərbaycan 2010-cu illərin əvvəllərində İrana qarşı hücum məsələsi gündəmə gələndə rəsmi açıqlama yayaraq öz ərazisindən digər dövlətlərə qarşı istifadəsinə icazə verməyəcəyini bildirib. İndi də zahirən elə idi, gözlənildiyinin əksinə, İrandan və İraq hökumətindən Mühəndisin iddiası ilə bağlı hər hansı açıqlama və ya ittiham olmadı.

Ancaq sentyabrın 4-də ABŞ-ın “The New York Times Magazine” nəşrinin yaydığı məqalə, necə deyərlər, “yaranın qaysağını qoparıb”. Ronen Bergman və Mark Mazzetti imzalı yazıda Tramp və ondan əvvəlki Obama administrasiyasının İran siyasəti, İsraillə əlaqələr və nəhayət, Azərbaycanın da adı hallanırdı.

Məqalədə Amerikanın İsraillə münasibətlərinin mürəkkəbliyindən də söz açılır. Amerika, İsrail və Avropanın onlarla indiki və keçmiş məmurları ilə bir neçə ay ərzində aparılmış söhbətlər indiyədək eşidilməyən detalları üzə çıxarıb. İsrail ordusu 2012-ci ildə İranı vurmağa çox yaxın imiş; Obama administrasiyası belə bir hücum halında özünün hərbi qabaqlayıcı planlarını hazırlayıbmış. Hətta Birləşmiş Ştatların qərbində bir səhrada İranın nüvə obyektinin tammiqyaslı maketi 30 min paundluq bombayla dağıdılıbmış.

Lakin eyni zamanda “İsrail İrana göz qoyduğu zaman amerikalılar da İsrailə göz qoyurdu. İsrail Azərbaycanda bir bazadan İrana kəşfiyyat dronları buraxanda Amerikanın peykləri bunun fotolarını çəkirdi,” məqalədə deyilir.

Keçmiş prezident Barak Obama İsrailin İrana qəfil zərbəsinin mümkünlüyünü ciddi qəbul edirmiş. “Amerikanın kəşfiyyat peykləri İsrail dronlarının Azərbaycanda bazalardan qalxmasını və İranla sərhədin cənub hissəsi üzərində uçmasını izləyirdi. Bu dronlar İranın nüvə obyektlərinin gen-bol şəkillərini çəkir, həm də İranın havadan müdafiə qüvvələrinin bu müdaxiləni müəyyənləşdirmə qabiliyyətini yoxlayırdı. Amerikanın hərbi liderləri israillilərin hücum üçün hansı dövrü seçəcəyi... üzərində baş sındırırdılar. Hərbi planları quranlar Tehranın İsrailin zərbəsinə necə cavab verəcəyi, Amerikanın buna necə cavab verməli olmasını çək-çevir edirdilər”,- məqalədə deyilir.

Qərb mətbuatında ortaya çıxan iddialardan belə çıxır ki, Azərbaycan hələ uzun illər əvvəl İsrail və ABŞ-ın İrana qarşı kəşfiyyat fəaliyyətlərini həyata keçirdiyi mərkəzlərdən biri olub. Hələ 7 il əvvəl bugünkü günlərdə “Röyters” agentliyi “kəşfiyyat mənbələrinə” istinadla İsrailin İrana qarşı hücumda Azərbaycan ərazilərindən istifadə edəcəyi haqda xəbər yaymışdı. O zaman bu xəbər bütün dünyada ajiotaja səbəb oldu. Təbii ki, iddialar təkzib olundu. Ancaq sonradan məlum oldu ki, bu xəbərlərin ortaya çıxmasının əsas səbəbi o zamankı Vaşinqton Administrasiyası ilə İsrail hakimiyyəti arasındakı ixtilaflar olub. Yəni Obama komandası bu cür xəbərlərlə İsrail baş naziri Netanyahunun özbaşına hərəkətlərini cəzalandırmaq olub.

Əlbəttə, böyük dövlətlərin kəşfiyyat, informasiya müharibəsi aparması yeni hadisə deyil, kimsəni də təəccübləndirmir. Amma məsələ ondadır ki, bu cür fəaliyyətlər, xəbərlər Azərbaycan üçün əlavə problemlər yaradır. Azərbaycan İranla böyük sərhədə malik, etnik, dini-məzhəbi, coğrafi və sair qonşuluğu olan ölkədir. Hər iki ölkənin bir sıra məsələlərdə qarşılıqlı təsirləri, asılılıqları var. İstənilən halda İranla münasibətlərin pisləşməsi, həmçinin İrana hərbi müdaxilə, bu ölkədə hər hansı kataklizm Azərbaycan üçün birbaşa təhlükə vəd edir. Təkcə onu nəzərə almaq lazımdır ki, cənub sərhədimizin o tayında on milyonlarla özünü azərbaycanlı hesab edən insan yaşayır.

Yeni İranla münaqişə bizə heç bir halda sərfəli ola bilməz. Üstəlik, hazırda Yaxın Şərqdə hibrid müharibənin qızışdığı bir zamanda Azərbaycanı da “savaş meydanına” çəkmək ən yaxşı halda bu ölkəyə qarşı düşmənçilikdir. İndi isə gələk son yayılan xəbərə. “Həşd-Şabi” komandiri bildirir ki, onlarda məlumat var ki, silahlı dronlar İraqa (həm də İrana - K.R.) Azərbaycandan gedib. Bilindiyi kimi, Azərbaycanın İraqla birbaşa sərhədi yoxdur. Azərbaycandan İraqa hava yolu İran və ya Türkiyə üzərindən keçməklə ən yaxşı halda 500 kilometr məsafə deməkdir. Üstəlik, əgər söhbət İraqın mərkəzində Suriyaya silah-sursat göndərilən bazanın vurulmasından gedirsə, bunun üçün daha uyğun məkanlar var. Məsələn, ABŞ-ın Yaxın Şərq regionunda hazırda 70 minlik saya malik 46 hərbi bazası var. Üstəlik, İraqın sahilində yerləşdiyi Fars körfəzində 5-ci donanması, Qətərdə isə regiondakı ən böyük hərbi hava bazası var. İraqın özündə 5 min, Suriyada isə 2 min ABŞ hərbçisi var. Üstəlik, həm İsrail, həm də ABŞ istədiyi vaxt Suriya və İraq üzərində uçuş həyata keçirə bilir. Bütün bunlar olduğu halda İraqı vurmaq üçün nədən məhz Azərbaycan ərazilərinə ehtiyac duyulur?

Azərbaycanın adının növbəti dəfə bu cür regional qalmaqalda hallanması onu göstərir ki, 7 il əvvəl olduğu kimi, böyük dövlətlərin, konkret olaraq ABŞ və İsrail hakimiyyətindəki qüvvələr arasında mübarizə gedir və bu mübarizədə tərəflər bir-birini bu şəkildə cəzalandırır. Netanyahu və Trampın İran siyasətini istəməyən qüvvələr bu şəkildə informasiya müharibəsi aparır. İkinci versiya isə Azərbaycanın konkret olaraq hədəfə gətirilməsidir. Görünür ki, hansısa qüvvələr Azərbaycanın İran və İraqla münasibətlərinin korlanmasında maraqlıdır, buna görə də bu cür məlumatlar dövriyyəyə buraxılır. İstənilən halda bu tip xəbərlərin son və ağır zərbəsi Azərbaycana, onun siyasi müstəqilliyinə dəyir. Əlbəttə, bu cür xəbərlər İsrail üçün də zərbədir, Azərbaycanı bu ölkə ilə münasibətlərində ehtiyatlı olmağa məcbur edir.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**“Yeni Müsavat”**

## Azərbaycanın “Cənub Qaz Dəhlizi” meqa layihəsi başa çatmaq üzrədir

**Azərbaycanın “Cənub Qaz Dəhlizi” meqa layihəsi başa çatmaq üzrədir.**

Bu barədə “Report”a Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) İctimaiyyətlə əlaqələr və tədbirlərin təşkili idarəsinin rəis müavini İbrahim Əhmədov bildirib.

Onun sözlərinə görə, bu layihənin seqmentləri olan Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi və Trans-Anadolu Qaz Boru Kəmərinin (TANAP) tikntisi kimi layihələrdə irəliləyiş 100 faizə yaxındır.

O bildirib ki, dünyanın ən iri qaz kondensat yataqlarından biri olan “Şahdəniz”lə bağlı 93%, Trans-Adriatik Qaz Boru Kəmərinin (TAP) tikintisilə bağlı 88,8% irəliləyiş əldə edilib.

“Cənubi Qaz Dəhlizinin bütün seqmentlərinin maliyyələşdirməsindəki Azərbaycan payı 1/4 qədər, yəni 10,1 milyard ABŞ dollarına yaxındır. Bu vəsaitin 97%-i həm yerli ehtiyatlar, həm də kənardan cəlm edilmiş vəsaitlər hesabına artıq yatırılıb”, - deyə İ. Əhmədov qeyd edib.

Qeyd edək ki, Cənub Qaz Dəhlizi layihəsinin bir hissəsi olan TAP kəməri ilə “Şahdəniz-2" layihəsi çərçivəsində hasil olunan qazın ilkin olaraq ildə 10 mlrd kubmetrinin Avropaya nəqli nəzərdə tutulur. Bu boru kəməri Türkiyə-Yunanıstan sərhədində TANAP boru kəmərinə qoşularaq Yunanıstan, Albaniya və Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna qədər uzanacaq.

“Şahdəniz” konsorsiumu iki il ərzində müxtəlif seçim variantlarını nəzərdən keçirdikdən sonra 2013-cü il iyunun 28-də TAP kəmərini seçdiyini rəsmən açıqlayıb. Boru kəmərinin ümumi uzunluğu 878 km-dir. Bunun da 550 km-i Yunanıstan ərazisini, 215 km-i Albaniyanı, 105 km-i Adriatik dənizini, 8 km-i isə Cənubi İtaliyanı əhatə edəcək. Boru kəmərinin ən yüksək nöqtəsi Albaniya dağlarında (1 800 m), ən aşağı hissəsi isə (-820 m) dənizin dibində olacaq.

2016-cı il mayın 17-də Yunanıstanın Saloniki şəhərində TAP-ın təməlqoyma mərasimi keçirilib. 2020-ci ildə Azərbaycan qazının Avropaya çatdırılacağı nəzərdə tutulur.

TAP Bolqarıstanın qaz ehtiyacının 33%-ni, Yunanıstanın 20%-ni, İtaliyanın isə təxminən 10,5%-ni qarşılayacaq.

YENİ MÜSAVAT
N 186 (7356) 10 sentyabr 2019

# Azərbaycanı “maşın zibilliyi”nə döndərən səbəblər

## Elməddin Muradlı: “Vəziyyəti dəyişmək üçün rüsum siyasəti yenidən nəzərdən keçirilməlidir”

**Azərbaycan dünyanın maşın zibilliyinə dönməkdədir. Bazarlarda əsasən Amerikada, Yaponiyada, Kanadada, İtaliyada suda, seldə batmış, ağır qəza etmiş, airbagları partlamış, sükanı sağdan sola keçmiş, bir sözlə, təhlükə saçan maşınlardır. Ölkədə avtoqəzalarda ölümün çox olmasının bir əsas səbəbi də budur. Əksər ölkələr bu cür maşınların idxalını yasaqlayıb. Bəs əldən düşmüş maşınların ölkəyə daşınmasını stimullaşdıran səbəblər hansılardır? Bunun qarşısını necə almaq olar?**

Niyə azərbaycanlılar köhnə, əldən-ələ keçmiş maşınlarda, qonşu gürcülər isə texnoloji üstünlükləri dövrlə ayaqlaşan nəqliyyat vasitələrində gəzir?

### “Elə vaxt olur ki, rüsumlar maşının alış qiymətini üstələyir”

“Avtosfer.az” saytının baş redaktoru, yol-nəqliyyat məsələləri üzrə ekspert Elməddin Muradlı deyir ki, ölkəyə gətirilən avtomobillərə ƏDV, aksiz vergisi və gömrük rüsumu yüksəkliyi nəticə etibarı ilə küçələrdə köhnə maşınların hərəkətdə olmasını şərtləndirir: “Gürcüstan Azərbaycandan dəfələrlə kasıb ölkədir. Azərbaycana çoxmilyonluq borcları da var. Amma Azərbaycanda maşın parkı əsasən köhnəlmiş nəqliyyat vasitələrindən ibarətdir. Avropa paytaxtlarında küçələrdə qəza baş verərkən həmin o ”Mercedes"də kimsə ölmür. Maşın qəzadan sonra ciddi deformasiyaya uğrasa da, salon parçalanmır, salonda olanlar yüngül xəsarətlərlə canlarını qurtarırlar.



Azərbaycanda isə belə qəzaların böyük əksəriyyəti ölümlə nəticələnir. Səbəb də odur ki, ölkəyə gətirilən maşınlar köhnədir, xaricdə qəzaya düşmüş maşınlardır. Bu da səbəbsiz deyil. Gürcüstandan 3 min dollara alınan nəqliyyat vasitəsini Azərbaycana gətirib sənədləşdirmək, rüsumları ödəmək qiymətin bir neçə dəfə qalxmasına səbəb olur. Elə vaxt olur ki, rüsumlar maşının alış qiymətini üstələyir. Bu cür rüsum siyasəti son nəticədə Azərbaycanın yollarında ölümlə nəticələnən qəzaları şərtləndirir. Gürcüstan maşın bazarının əsas alıcıları azərbaycanlılardır. Ölkəmizdəki rüsum siyasəti belədir ki, alıcılıq qabiliyyətinə çox ciddi təsir göstərir. Gürcüstan maşın bazarı da müştərisiz qalır. Çıxış yolu kimi azərbaycanlılara daha ucuz maşınlar təklif olunur. Ön hissəsi əzilmiş maşınla arxa hissəsi əzilən maşından 1 maşın yığdırıb daha ucuz qiymətə həmyerlilərimizə satırlar. Yəni bir neçə maşının kuzovundan 1 maşın yığıb satırlar. Azərbaycanlılar da belə ucuz maşınları alıb ölkəyə gətirirlər. Qəza baş verəndə də maşının təhlükəsizlik yastıqları açılmır, maşın zavoddan kənar, Gürcüstanda sexlərdə qaynaq edildiyi hissələrdən parçalanıb yola səpələnir. Təbii ki, belə maşınlarda qəza anında sürücünün, sərnişinin sağ qalması möcüzədir. Halbuki zavod istehsalı olan maşınların bu cür param-parça olması mümkün deyil. Qəza zamanı ciddi deformasiyaya uğrasa da, parçalanmır. Azərbaycanda isə dünyada ən çox yayılan minik vasitəsi olan “Mercedes” ağaca dəyib 2 hissəyə bölünə bilər. Çünki calaq olunmuş maşınlardır".

### “Azərbaycanda axtarsan maksimum 20 sağlam elektromobil tapmaq olar”

**Elməddin Muradlı deyir ki, Gürcüstan maşın bazarında 6-7 min manata alınan maşın Bakıda 14-15 min manata qədər bahalaşır:** “Səbəb rüsumlardır. Vəziyyəti dəyişmək üçün rüsum siyasəti yenidən nəzərdən keçirilməlidir. Gürcüstanda artıq avtomobil parkının böyük hissəsini elektromobillər, hibrid maşınlar təşkil edir. Yaxın gələcəkdə orada dizel, benzin mühərrikli nəqliyyat vasitələrindən istifadə edən çox az vətəndaş qalacaq. Əksəriyyət elektromobillərə, hibrid mühərrikli maşınlara üstünlük verəcək. Bu gün Gürcüstanda bu cür nəqliyyat vasitələrinə maraq belə nəticəyə gəlməyə əsas verir. Azərbaycanda isə axtarsan maksimum 20 elektromobil tapmaq olar. Halbuki Gürcüstanda elektromobillər artıq hər kəs üçün əlçatandır. Bizdə isə elektromobillərin qiymətləri orta statistik gəliri olan azərbaycanlı üçün fantastik hesab edilə bilər”.

**Elməddin Muradlı qeyd edib ki, ötən ilin dekabrında prezident İlham Əliyev “Yol hərəkətinin təhlükəsizliyinə dair” 5 illik Dövlət Proqramı haqda sərəncam imzalayıb:**

“Həmin Dövlət Proqramında yazılıb ki, elektromobillərin, hibrid avtomobillərin ölkəyə gətirilməsinin stimullaşdırılmalıdır. Yəni belə nəqliyyat vasitələrinin ölkəyə gətirilməsi üçün rüsumlar aşağı salınmalıdır. Gürcüstanda elektromobillə digər növ yanacaqla hərəkətə gələn nəqliyyat vasitəsinin rüsumu arasında 60-70 faiz fərq var. Benzin mühərrikli maşının rüsumu 10 mindirsə, elektromobilinki 3-4 min manatdır. Hibrid mühərrikli maşınlarda həm də yanacaq xərclərində də ciddi qənaət etmək mümkündür. Yəni rüsumda 6-7 min fərq olan yerdə, üstəlik, yanacaq xərci tamamilə olmayan bir maşına kim maraq göstərməz? Stimullaşdırma da elə budur. Üstəlik, ətraf mühit də mühərrikdən ayrılan zərərli qazlardan təmizlənir, şəhərlərin ekoloji durumu da yaxşılaşır”.

**Elməddin Muradlı deyir ki, Azərbaycanın böyük maşın zibilliyindən qurtarmaq üçün prezidentin imzaladığı Dövlət Proqramı icra olunmalıdır:** “Ölkə rəhbərliyi ortaya iradə qoyub. Qalır 5 il müddətinə gerçəkləşməli olan Dövlət Proqramının icra etmək. Ötən 9 ayda əməli iş nəzərə çarpmır. Rüsumlar yerində qalıb. Elektromobil, hibrid maşınların təmir stansiyaları da yox səviyyəsindədir. Bu proqramın icrası ölkənin maşın parkının tam olaraq yenilənməsinə yol açır. Dövlət Proqramı təcili şəkildə icra olunmalıdır. Ən azı yollarda vətəndaşlarımızın döyüş bölgəsində olduğundan artıq qırılmaması üçün bunu etmək vacibdir”.

❑ **Elşən MƏMMƏDƏLİYEV, “Yeni Müsavat”**

# Bakıda küçə ticarəti sahmana salınır

## Paytaxtın bəzi yerlərində yeni köşklər yaradılıb; **iqtisadçı:** “Küçə ticarəti normal və düzgün təşkil olunursa...”









**Son vaxtlar Bakıda küçə ticarəti ilə məşğul olanların sayı çoxalıb. Paytaxtın rayonlarında insanların xırda ticarətlə məşğul olmasına şəraitin yaradılması, hər kəs tərəfindən müsbət qarşılanır. Lakin ekspertlər bildirirlər ki, küçə ticarətində müəyyən sahman yaradılarsa, daha da yaxşı olar.**

“Yeni Müsavat” xəbər verir ki, artıq Bakının Məhəmməd Hadi küçəsində küçə ticarətçiləri ilə bağlı yeni şərait yaradılıb. Belə ki, əvvəllər pərakəndə şəkildə satışın olduğu ərazilərdə müasir formada mağazalar tikilib, ərazi səliqəyə salınıb. Bu cür köşk və mağazaların tikilməsi, ərazidə pərakəndə şəkildə ticarətlə məşğul olanların da qarşısını alıb. Metronun “Həzi Aslanov” stansiyasının çıxışlarında açılan bu cür mağazalar gəliş-gedişin də asanlaşmasına səbəb olub.

Sakinlərlə söhbətimiz zamanı onlar bildirdilər ki, bu cür vəziyyətin metronun “Xalqlar dostluğu” stansiyası ətrafında da yaradılmasına ehtiyac var. **Sakin Kərim Quliyev** söylədi ki, “Diqlas” ticarət mərkəzində yanğın baş verdikdən sonra “8-ci kilometr” bazarı ətrafında da müəyyən sahman yaradılıb: “Yanan ticarət mərkəzinin qarşısında xeyli sayda kiçik piştaxtalar, dönərxanalar, ucuz uşaq geyimlərinin satıldığı yerlər var idi. Ticarət mərkəzi yanandan sonra həmin piştaxtaları sökdülər. Ancaq yerində hər hansı müasir konstruksiyalı dükanlar açmayıblar. Orada çalışan camaat indi də ”Xalqlar dostluğu" stansiyası istiqamətində, “Laçın” ticarət mərkəzinin qarşısında yer götürüb, alış-verişlə məşğuldur. İstidə, soyuqda bu adamlar da əziyyət çəkir, piyadalar da. Çünki piyada keçidlərini obyekt edirlər. Ona görə də yaxşı olar ki, qeyd edilən ərazidə də bu kimi tənzimləmə işləri aparılsın".





**İqtisadçı Natiq Cəfərli isə “Yeni Müsavat”a bildirdi ki, əgər küçə ticarəti normal və düzgün təşkil olunursa, şəhərə rəng qatır:** “Turistik şəhərlərdə xüsusilə bu cür məsələlərə diqqət edilir. Bakı da turistik şəhərlərdən birinə çevrilməyə hazırlaşır. Bunun istiqamətində addımlar atılır. Bəlli qaydalar, lisenziyalaşma çərçivəsində küçə ticarətinin həyata keçirilməsi qadağan olunmaqdan daha yaxşıdır. Bu, həm iqtisadi aktivliyə təsir edən amildir, həm də yeni iş yerlərini yaratmaq potensialına malik bir sahədir. Obrazlı şəkildə desək, küçə ticarətini o qədər də qlamurlaşdırmaq lazım deyil. Çünki bəzəkli, göz oxşayan dükanlara ehtiyac yoxdur. Sadəcə olaraq, normal lisenziyalaşdırma həyata keçirmək lazımdır. Çox cüzi vergi qoymaqla işləri sahmana salmaq olar. Bu da ona görə lazımdır ki, qeyd etdiyimiz məsələ ilə küçə ticarətinin dövriyyəsini bilmək, iqtisadiyyata qatqılarını hesablamaq olar. Cüzi vergi, bəlli oyun qaydaları ilə küçə ticarətinin təşkilində yeni qaydalar müəyyən edilməsinə ehtiyac var. Qadağan isə doğru yol deyil. Avropanın da istənilən mərkəzi şəhərlərinə getdikdə küçə ticarətinin kifayət qədər inkişaf etdiyini görürük. Bu cür vəziyyətin Bakıda və Azərbaycanın digər şəhərlərində bəlli qaydalarla təşkil olunmasına ehtiyac var. Sadəcə olaraq, gözəl təqdimata, dükanlar tikilməsinə ehtiyac yoxdur. Çünki bu, əlavə xərc deməkdir. Əlavə xərc çəkiləndə isə küçə ticarəti ilə məşğul olanlardan əlavə vəsait tələb olunacaq. Bu da küçə ticarətinin fəlsəfəsinə ziddir. Çünki küçə ticarəti daha ucuz olan malları tez bir zamanda çıxış əldə etmək üçün maraqlıdır. Əgər orada əlavə xərclər yaranacaqsa, qiymətlər də bahalaşacaq və məsələnin məntiqi və məğzi itəcək”.

Onu da qeyd edək ki, 2016-cı ildə İnzibati Xətalar Məcəlləsinə dəyişiklik edilərək, qanunsuz küçə ticarətinə qarşı cəzalar sərtləşdirilib. İnzibati Xətalar Məcəlləsinin “Qanunsuz küçə ticarəti” adlı 453-cü maddəsinə əsasən, qanunsuz küçə ticarəti, yeni müvafiq icra hakimiyyəti orqanları tərəfindən müəyyən edilməmiş yerlərdə malların satılmasına və ya işlərin (xidmətlərin) görülməsinə görə 80 manat cərimə tətbiq olunur.

❑ **Əli RAİS, “Yeni Müsavat”**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 186 (7356) 10 sentyabr 2019

# Uşaq pulu - yalnızca maddi yardım, yoxsa...

**Ekspert:** “Uşaq pulu müxtəlif qrup uşaqlara verilən müavinətlə bağlanmamalıdır”

**Azərbaycanda uşaq böyüdən ailələrə dəstək verilməsi - “uşaq pulu” adlandırılan müavinətin bərpa olunması məsələsi yenidən müzakirələrə səbəb olmaqdadır. Son bir ildə ölkədə həyata keçirilən sosial paketin icrasına başlanandan bəri əhalinin ən böyük gözləntiləri məhz bu məsələ ilə bağlıdır: insanlar dövlətin öz kiçik vətəndaşlarına dəstək verməsini gözləyirlər. Bu gözləntini dəyərləndirən əksər ekspertlər də Azərbaycanda uşaqlara dövlət dəstəyinin dünya təcrübəsində geniş yayılmış bu mexanizminin tətbiqinin zəruri olduğunu bildirirlər.**

Maraqlıdır ki, son vaxtlar bəziləri Azərbaycanda müəyyən məhdud qrup uşaqlara (valideynini itirən, fiziki əngəlli, həqiqi hərbi xidmət keçən hərbu qulluqçuların, Qarabağ qazilərinin, Çernobıl əlillərinin övladları və sair) müavinət verildiyini əsas gətirməklə, uşaqpulunun bərpa olunmasına ehtiyac duyulmadığını iddia edirlər. Bir qrup isə uşaqpulunun demoqrafik problem yaşayan ölkələrdə verildiyini, Azərbaycanda isə belə problem olmadığını deyirlər. Halbuki rəsmi statistikaya nəzər yetirəndə, Azərbaycanın da demoqrafik problemlərə doğru getdiyini açıq görmək olur. Belə ki, Dövlət Statistika Komitəsinin məlumatından aydın olur ki, Azərbaycanda əhalinin tərkibində uşaqların və yeniyetmələrin sayı davamlı azalma tendensiyası nümayiş etdirir: 1995-2019-cu illərdə 0-4 yaşlı uşaqların əhalinin tərkibindəki payı 10,8 faizdən 7,7 faizə, 5-9 yaşlılar 11,4 faizdən 8,3 faizə, 10-14 yaşlılar 10,4 faizdən 6,4 faizə, 15-19 yaşlılar 8,9 faizdən 6,5 faizə düşüb. Əvəzində 70 və ondan yuxarı yaşlıların payı 3 faizdən 4 faizə, 65-69 yaşlılar 2,5 faizdən 2,8 faizə, 60-64 yaşlılar 3,3 faizdən 4,7 faizə, 55-59 yaşlılar 4,1 faizdən 6,5 faizə, 50-54 yaşlılar 2,7 faizdən 6,5 faizə qədər artıb. Ölkədə demoqrafik vəziyyətin yüksək olduğunu iddia edənlər bir bu statistikaya da baxsınlar.

1990-cı ildə 15-49 yaşda qadınların hər 1000 nəfərinə düşən diri doğulanların sayı 99,4 olubsa, 2018-ci ildə bu, 53,1-ə düşüb. Yeni doğum sayı az qala ikiqat azalıb. Bu halda demoqrafik problemin yaranmasını gözləmədən, ona qarşı tədbirlər həyata keçirilərsə, dövlət bundan qazanar, nəinki itirər.

**İqtisadçı-ekspert, İqtisadi və Sosial İnkişaf Mərkəzinin rəhbəri Vüqar Bayramov bildirir ki, Avropa ölkələrindən Avstriyada 3 yaşadək uşaqlara 105, 3-9 yaş arasında olanlara 112, 18 yaşadək uşaqlara isə 130 avro ödənilir:** “İrlandiyada 18 yaşınadək bütün uşaqlar ayda 140 avro alır. Finlandiyada 17 yaşadək birinci uşağa ayda 100, ikinci uşağa 110, üçüncü uşağa 141, dördüncü uşaqa 162 avro ödənilir. Almaniyada birinci və ikinci uşağın hər birinə 194, üçüncü 200, dörd və daha çox olanlar isə hərəyə 225 avro aylıq ödəniş həyata keçirilir. Oxşar mexanizmlər Avstraliya, Kanada, Fransa, İtaliya, İsveç, İsveçrə, İspaniya, Norveç, Yeni Zellandiya, Cənubi Koreya və eləcə də əksər Mərkəzi və Şərqi Avropa ölkələrində, o cümlədən Polşa və Macarıstanda da tətbiq olunur. Bəzi ölkələrdə uşaq pulunun məbləği ailənin gəlirlik səviyyəsinə uyğunlaşdırılır. Məsələn, İtaliyada illik gəliri 11.422 avroyadək olan ailələrə hər uşağa görə ayda 250 avo ödənilir. Ailənin gəliri artdıqca uşaq pulunun məbləği dəyişir. Rusiyada hətta ikinci uşağı dünyaya gətirən ailələrə 8 min dollara yaxın ”analıq kapitalı" adlandırılan ödəniş edilir. Bu vəsait uşağın təhsili və digər prioritet məqsədlər üçün istifad edilir".

Bizim kimi sovet şinelindən çıxmış bütün ölkələrdə fiziki imkanları məhdud, valideynini itirən və digər bir sıra uşaqlara dövlət müavinət ödəyir. Bununla bərabər, onların hamısında - Rusiya, Ukrayna, Belarus, Qazaxıstan və sair - uşaqlar müəyyən yaş həddinə çatanadək valideynə dövlət uşaq pulu formasında da dəstək verir. Nəhayət, bir məsələni də qeyd edək ki, hökumət pensiya yaşını davamlı olaraq artırarkən birmənalı olaraq Avropa ölkələrinin təcrübəsini əsas gətirir. Bəs nədən uşaq puluna gələndə Avropanın təcrübəsi Azərbaycan üçün yararsız hesab olunur?

**İqtisadçı-ekspert Pərviz Heydərov hesab edir ki, məhdud sayda uşaqlara (fiziki hərəkət imkanları az olan, yaxud olmayan, valideynini itirmiş və sair) müavinət verildiyini əsas gətirməklə “uşaqpulu lazım deyil” demək düzgün yanaşma ola bilməz:** “Məlum olduğu kimi, cari ildən ölkədə hökumət və dövlət tərəfindən genişmiqyaslı bir sosial paket həyata keçirilməkdədir. Sözügedən paket demək olar ki, bütün istiqamətləri əhatə edir. Gələcəkdə bu paketin icrası getdikcə daha da təkmilləşdirilmiş şəkildə həyata keçiriləcəkdir. Belə ki, elə məsələlər vardır ki, tədbiq olunduqca yenilən-dirilməli və daha təkmil, ünvanlı və effektli xarakter almalıdır. Məsələn, götürək, ünvanlı sosial dövlət yardımını: Zaman keçdikdən sonra aydın olur ki, bunu verməkdənsə, əhalini məşğulluğa cəlb etmək üçün müvafiq mexanizmlərin hazırlanıb işə salınması daha məqsədəuyğundur. Uşaq puluna gəldikdə isə bunu da yuxarıda qeyd etdiyim sosial paketin tərkib hissəsi olaraq nəzərdən keçirtmək lazımdır. Və sözügedən məsələyə daha həssas və diqqətlə yanaşılmalıdır. Ümumiyyətlə, dövlətin sosial siyasəti əhalinin aztəminatlı və sosial müdafiəyə ehtiyacı olan həssas qrupuna yönəlik xarakter daşımalıdırsa, uşaqlar burada mərkəzi nöqtədə dayanır. Qocalar və uşaqlar - bunlar əhalinin ən çox və ilk növbədə dövlətin sosial müdafiəsinə ehtiyacı olan təbəqəsi və hissəsidir. Uşaqların sosial müdafiəsi məsələsi nə demoqrafik, nə əlil, fiziki yardıma ehtiyacı olan, nə valideynini itirən, nə hərbi və yaxud hər hansı peşə qulluqçuların uşaqlarına və sair aid qruplaşdırılası - prizmalara uyğun baxılası məsələ deyil. Bunları bir-birinə bağlamaq düzgün deyil. Uşaq pulu məsələsi vahid kontekstdə nəzərdən keçirilməli və ümumi mexanizm əsasında həllini tapmalı olan məsələdir”.

**Ekspert bildirir ki, sosial dövlət geniş və eyni zamanda müəyyən bir zaman çərçivəsində yarana bilən, konkret mexanizmə əsaslanan modeldir:** “Buna təkcə bu və ya digər istiqamətdə addımlar atmaqla, iqtisadi inkişafa nail olmaqla, gəlirliliyə çatmaqla müyəssər olmaq mümkün deyil. Ümumiyyətlə, sosial dövlət nədir? Sosial dövlət - vətəndaşların rifahını başlıca vəzifəsi hesab edən, onların iqtisadi-sosial əmin-amanlıqlarını qorumağa çalışan sistem və quruluşdur. Bütün bunlar elə bizim dövlətin də əsas vəzifələrini təşkil edir. Təkcə dövlət büdcəmizə diqqət yetirmək kifayətdir: hər il onun xərclər hissəsinin əsasını sosial məsrəflər təşkil edir. Yeni dövlət büdcəsi xərclərinin az qala yarıdan çoxu əmək haqqı və pensiya, o cümlədən, müavinətlərin ödənişinə gedir. Və bunlar da demək olar, hər il artırılır. Onda belə çıxır ki, ölkədə əlavə olaraq dövlət tərəfindən sosial müdafiə siyasətinə və tədbirlərinə ehtiyac yoxdur? Sözsüz ki, bu, səhv yanaşmadır. Dövlət büdcəsi xərclərinin yarıdan çoxu əmək haqqı və pensiya, o cümlədən müavinətlərin ödənişinə getsə də, əlavə sosial müdafiə tədbirlərinə yenə ehtiyac var”.



❑ **Dünya SAKİT,**
**“Yeni Müsavat”**

## Çinli uşaqlar astronavt, amerikalı və ingilis uşaqlar isə YouTuber olmaq istəyirlər

**İnsanın Aya ayaq basmasının 50-ci ildönümü münasibətilə keçirilən bir sorğu maraqlı nəticələr ortaya çıxarıb.**

Musavat.com BBC Türkcəyə istinadən xəbər verir ki, sorğu “Lego” şirkəti adına, yaşları 8-12 arasında olan 3 min uşaqla ABŞ, İngiltərə və Çində həyata keçirilib. ABŞ və İngiltərədə YouTuber və ya vlogger olmaq istədiyini deyən uşaqların sayı astronavt olmaq istəyənlərdən üç dəfə daha artıqdır. Çində isə sorğuya qatılanların çoxu taykonot (Çində astronavt) olmaq istədiyini dedi.

Sorğu çərçivəsində uşaqlara beş seçim təqdim edilərək, böyüyəndə nə olmaq istədikləri soruşulub. Uşaqlar astronavt, musiqiçi, peşəkar atlet, müəllim və YouTuber/vlogger peşələri arasından seçim edib.

Çindəki uşaqların yüzdə 56-sı astronavtlığı üstün tutarkən ABŞ və İngiltərədə bu faiz yüzdə 11 olub. İngiltərədə YouTuber olmaq istədiyini deyənlərin faizi yüzdə 30, ABŞ-da isə yüzdə 29 olub.

Hər üç ölkədə müəllimlik ən çox tərcih edilən ikinci peşə olub. “Business Insider” jurnalı yazıb ki, sorğunun nəticələri Z nəslinin seçimlərini özündə əks etdirir. Z nəsli - 1990-ların ortalarından sonra dünyaya gələn, internet, texnologiya və sosial media ilə daha çox bağlı olan nəsil deməkdir.

❑ **SEVİNC,**
**Musavat.com**

YENİ MÜSAVAT

Son səhifə

N 186 (7356) 10 sentyabr 2019

# İki uşaq anası ağacla evləndi

Böyük Britaniya sakini və iki uşaq anası Keyt Kanninqem bir ağacla evlənib və indi soyadını həmin ağacın adı ilə dəyişdirməyi planlaşdırır. Bu barədə "The Mirror" nəşri xəbər verib. Qadın bildirib ki, sevgilisi onun bu qərarını dəstəkləyib və hətta mərasim üçün sənədlərin hazırlanmasında da kömək edib. Böyük oğlu Kanninqem anasının bu planları barədə eşidəndə çox təəssüflənib. Amma daha sonra toya gəlməyə qərar verib. Atası da britaniyalını dəstəkləyib. O, toya qədər hər şeyi təşkil etməyə söz verib.



34 yaşlı gəlin Liverpuldakı Rimrouz Velli parkına gedən yolun üstündə yeni yol tikintisinə öz etirazını bildirməyə çalışıb. İndi isə o, soyadını Keyt Elder olaraq dəyişməyə hazırlaşır. "Mənim anam astmadan ölüb. Mən də bronxoektaziyadan əziyyət çəkirəm. Bu yeri yeni yüklü yol tikmək üçün buldozer altında qoymaq planları bizim sağlamlığımıza ziyandır. Bizim regionda onsuz da ağlamalı ekoloji vəziyyətdir. Ona görə də biz situasiyanın dəyişməsi üçün təcili qərarların verilməsində maraqlıyıq"- bunu da ağacla evlənən qadın deyib.

2018-ci ilin əvvəlində isə xəbər verilmişdi ki, meksikalılar kütləvi şəkildə ağaclarla evlənirlər. Mərasim iştirakçıları ağ əlbisə geyinib, ağacları öpür, onlara sadiq qalacaqları ilə bağlı and içir və havaya gül dəstələri atırdılar. Onlar bununla Meksikanın cənub qərbində kütləvi ağac kəsiminə ictimaiyyətin diqqətini çəkməyə çalışırdılar.



## Ancaq bayram günlərində oğurluq edib

**ABŞ sakini 5 il boyunca bayram günlərində Florida ştatından Nyu York şəhərinə gəlib, varlıların evlərini qarət edib və 400 min dollara yaxın zinət əşyaları oğurlayıb. Bu barədə CNN xəbər verib.**

82 yaşlı Samuel Sabatino qarət etdiyi evlərə girəndə özünü ev sahibinin qohumları kimi təqdim edib. Kişini saxlayanda o, binanı qarışdırdığını deyir və aradan çıxırdı. Cinayətkar öncə ev sahiblərinin evdə olub-olmadığını bayır qapısından asılmış qəzet və qəbzlər əsasında müəyyənləşdirirdi. Ardınca o, içəri daxil olur, saatları, üzükləri, brilyant və qızılı oğurlayırdı.

Polis şübhələnir ki, təkcə 2019-cu ildə amerikalı üç binadan 100 min dollar məbləğində oğurluq edib. Sabatino Nyu Yorkda, avqustun sonunda həbs edilib. Onu qarət və soyğunçuluqda ittiham ediblər. Polisdə Sabatinonu "bayram oğrusu" adlandırıblar. Belə ki, o, ancaq bayram günlərində - Xatirə Günü, Müstəqillik Günü və Əmək Günündə soyğunçuluq edib. 2001-ci ildə də Sabatinonu oğurluğa görə cinayət məsuliyyətinə cəlb ediblər.

Daha öncə xəbər verilmişdi ki, Viskonsin ştatının polisi oğrunu onun hadisə yerində unutduğu mobil telefona görə tapıb. Oğru bağlanmamış maşına girib və orada içində çoxlu sayda 20 dollarlıqlar olan pulqabını oğurlayıb. Polis hadisə yerində 38 yaşlı kişinin telefonunu onun şəxsi şəkilləri ilə birgə tapıb.

# Toyunun ildönümündə 190 min dollar uddu



**Amerikanın Vaşinqton ştatının Takoma şəhər sakini toyunun 30-cu ildönümündə lotereya udub. Bu barədə UPI saytı xəbər verib. Qadın Fred Meyer mağazasının avtomatında Hit5 lotereya bileti satın alıb. "Mən lotereyanı konkret bir mağazada və konkret bir avtomatda oynayıram" - bunu da o, belə ümumiləşdirib. Amerikalı qadın lotereyanın nəticələrini mobil aparatda yoxlayıb və aydınlaşdırıb ki, 190 min dollar qazanıb.**

Qalib qadın qərar verib ki, pul mükafatını yubileyini keçirmək üçün xərcləməyə qərar verib: "Biz onsuz da şəhərdən çıxmağı planlaşdırırdıq. Bu pulların sayəsində biz istədiyimiz kimi istirahət edə biləcəyik".

Avqustda xəbər verildi ki, Amerikanın Missuri ştat sakini evliliyinin 10-cu ildönümü münasibətilə lotereya bileti alıb və böyük uduş əldə edib. Kişi milyon dollar qazanıb.



## İnsan tez-tez şokolad yeyirsə...

**Tez-tez ət və şokolad yemək insan psixikasını məhv edir və uzunsürən depressiyaya səbəb olur. Bu qəribə nəticəyə amerikan tədqiqatçıları gəliblər. Alimlər 10 il ərzində 15 min könüllünün analizini toplayaraq onların psixi durumunu və qida rasionunu dəyərləndiriblər. Tədqiqatların yekununa əsasən müəyyən edilib ki, şirni, xüsusilə şokolad və yağlı ət həvəskarları əsəb sisteminin pozulmasından daha çox əziyyət çəkirlər. Onlar sakitləşmək və normal hala düşmək üçün daha çox sedativ preparatlar qəbul edirlər.**

Alimlər depressiyanın inkişaf riskini azaltmaq üçün şirnisevənlərə və "ət yeyənlərə" bir müddət ət və şokoladdan uzaq olmağı, yaxud heç olmasa pəhriz günləri keçirməyi məsləhət görürlər.

# Bunları bilirsizmi?

* Həm sevdiyiniz, həm də nifrət etdiyiniz birinə baxanda göz bəbəkləriniz böyüyür.

* Sarışınların saç telinin sayı qaraşınlardan daha çoxdur.

* Bədənimizdəki ən sərt yer diş minamızdır.

* Burnunuzla baş barmağınız eyni boydadır.

* İnsanın dişləri doğumundan 6 ay əvvəl meydana gəlməyə başlayır.

* Bədəninizin 30 dəqiqədə itirdiyi istiliklə iki litr suyu qaynada bilərsiniz.

* Hər bir ayağınızda təxminən bir trilyon bakteriya var.

* Bir yuxu orta hesabla 2-3 saniyə davam edir.

* Yeməyin ağzınızdan mədənizə çatması yeddi saniyə çəkir.

* Mədə turşunuz bir ülgücü əridə biləcək gücdədir.

* Bir cüt ayaqda 250 000 tər vəzisi var.

* Ayaq baş barmağınızda iki sümük olmasına qarşılıq digər dörd barmağınızda üç sümük var.

* Arının sancmasından ölənlərin sayı ilanın çalmağından ölənlərdən çoxdur.

* Dünyadakı canlıların 70%-i bakteriyalardır.

* Sienada (İtaliya) Mariya adlı qadın fahişə ola bilməz.

* Qarışqalar yata bilmir.

* İlanlar eşidə bilmir.

* Qarışqalar öz ağırlığının 50 qatını daşıya bilir.

* Qarışqalar iki həftə su altında qala bilirlər.

* Ağcaqanadların 5 dənə gözü var.

* 1 kq bal hazırlamaq üçün 1 arı 2 milyon gülə qonmalıdır

* Zürafələrin səs telləri yoxdur.

* Bir ağcaqanadın sürəti saatda 8 km-dir.

* Dəstə halında pul saymaq ruhu sakitləşdirir və güvən hissini artırır.

* Bir saat mahnı oxumaq stresinizi azaldar, immun sisteminizi yaxşılaşdırar.

* İnsanın beyni ilə qarnı arasında bağlantı var. Bu səbəbdən də həyəcan keçirdiyimiz zaman qarın nahiyəsində ağrı hiss olunur.

* Gözlərimiz qapalı olanda aldığımız məlumatı daha tez qavrayırıq.

* İnsanların 72%-nin ağlına ən gözəl fikirlər duşdaykən gəlir.

* Sosioloqlar belə müəyyən ediblər ki, insan bioloji varlıq kimi 100-140 il yaşaya bilər.

* Əgər ananası ağzınızda uzun müddət saxlasanız, o, sizi "yeməyə" başlayır. Ananasın içindəki züllalar əti əridə biləcək qədər qüvvətlidir.

* İnsanların 90%-i gecə yatarkən əlini çarpayıdan aşağı sallamaqdan qorxur.

# Araqdan zəhərlənən vyetnamlını pivə ilə sağaltdılar

**Vyetnamda həkimlər xəstənin alkoqol zəhərlənməsindən ölümünün qarşısını onun üzərinə 4.5 litr pivə tökməklə alıblar. Bu barədə "Daily Mail" nəşri xəbər verib. İnsident Kuanqçi bölgəsində baş verib. Reanimasiya şöbəsi rəhbəri Le Van Lamanın verdiyi məlumata görə, 48 yaşlı Nguyen Van Nhat ağır vəziyyətdə xəstəxanaya gətirilib. Onun qanında metanolun miqdarı normadan 1119 dəfə çox olub. Buna səbəb onun keyfiyyəsiz alkoqollu içki qəbul etməsi olub.**

Həkimlər kişinin orqanizminə 3 pivə bankası töküblər. Bankalardan hərəsi 0.3 litr olub. Onun tərkibində etanol, antidot və metanol olub. Bu, xəstəyə kömək edib, ona görə də növbəti 12 saat ərzində ona hər saatbaşı pivə veriblər. Bu müddət ərzində hemodializ keçirilib - bu, qanın təhlükəli toksinlərdən təmizlənməsidir. Prosedurlar nəticəsində Nxat özünə gəlib. Üç həftə sonra isə o, tamamən sağalıb

Soktor Lam izah edib ki, alkoqol insan bədəninə iki formada daxil ola bilər - elit spirti və metil spirti. İkinci insan orqanizmi üçün ölümcül təhlükə təşkil edir.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 3.050